(Ya Rəsulum!) De: "Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allahın (qətlini) haram buyurduğu cana qıymayın (müsəlman və ya əhli-zimməni haqsız yerə öldürməyin). (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız!

*(Qurani-Kərim, əl-Ənam, 151)*

## Azərbaycan Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə referendum sentyabrın 26-da keçiriləcək

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi ümumxalq səsverməsinə (referenduma) çıxarılması və kütləvi informasiya vasitələrində dərc edilməsi qeyd olunub. Ümumxalq səsverməsi 2016-cı il sentyabrın 26-na təyin edilib.


www.scwra.gov.az

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

# Cəmiyyət və Din

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 07 (300) / İYUL 2016-cı il




# DQİDK-da kollegiya iclası keçirilib

İyulun 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) cari ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib. İclasda Kollegiya üzvləri ilə yanaşı, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev, Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasına diqqəti cəlb edib. Mübariz Qurbanlı bildirib ki, cənab Prezidentin iclasdakı nitqində səsləndirilən fikirlər bir daha təsdiqlədi ki, müasir dövrdə dünyada baş verən hadisələr, siyasi qarşıdurmalar, neftin qiymətinin kəskin ucuzlaşması, maliyyə, siyasi və iqtisadi böhranlar təbii olaraq Azərbaycandan da yan keçməyib. Ancaq dəfələrlə belə hadisələrin şahidi olsaq da, ölkəmiz hər dəfə yaranmış vəziyyətdən uğurla çıxıb. Prezident İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsiplərindən olan multikultural və tolerant dəyərlərimizin təbliğinə dövlət qayğısının müntəzəm diqqət mərkəzində saxlanılmasını önə çəkən Komitə sədri qeyd edib ki, cari ilin 6 ayı ərzində ölkəmizdə "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planına müvafiq olaraq bu istiqamətdə çoxsaylı tədbirlər həyata keçirilib.

İclasda hesabat məruzəsi ilə çıxış edən Mübariz Qurbanlı qeyd edib ki, Komitə cari ilin birinci yarısında vəzifəsindən irəli gələn funksiyaların həyata keçirilməsi istiqamətində mövcud qanunvericiliyi, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrini rəhbər tutaraq, milli və dövlətçilik maraqlarının qorunması yolunda fəaliyyətini davam etdirib. Dini durumun öyrənilməsi, dini icmaların fəaliyyətinə nəzarətin gücləndirilməsi, radikal cərəyan və təriqətlərin qanunazidd əməllərinin aşkarlanması ilə bağlı tədbirlər görülüb. Din adı ilə milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasına qarşı mümkün vasitələrlə mübarizə davam etdirilib, bu istiqamətdə qabaqlayıcı, profilaktik və inzibati tədbirlər həyata keçirilib.

səh. 2

Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. İkinci erməni dövləti yaradıla bilməz. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilə bilməz. Bunu artıq beynəlxalq ictimaiyyət qəbul edir. Əvvəlki dövrlərdə biz başqa fikirlər eşidirdik. Əfsuslar olsun ki, əvvəlki dövrlərdə bəzi hallarda beynəlxalq hüquq, BMT-nin qətnamələri kənarda qalırdı və Dağlıq Qarabağın gələcəyi ilə bağlı həqiqətə, o cümlədən tarixi həqiqətə uyğun olmayan müxtəlif təkliflər irəli sürülürdü. Bütün bunlar artıq keçmişdə qaldı. Məsələnin mərhələli yollarla həlli yeganə mümkün variantdır. Əgər bu variant reallaşarsa, onda həm torpaqlarımız işğalçılardan azad ediləcək, eyni zamanda, Dağlıq Qarabağın erməni əhalisi və mütləq oraya qayıdacaq azərbaycanlılar sülh, təhlükəsizlik şəraitində yaşayacaqlar. Bunun başqa həlli yolu yoxdur.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

*Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən*

*Bakı, 10 iyul 2016-cı il*

## "Dövlət həmişə dinin və dindarların yanındadır"



səh. 4



## Respublikamızın sürətli inkişafı Azərbaycan rəhbərliyinin müdrik siyasətinin bəhrəsidir

səh. 7

## Dövlət Komitəsi yeni qeydiyyatdan keçmiş 36 dini icmaya şəhadətnamələr təqdim edib

səh. 10

## Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin tarix boyu sülh və əmin-amanlıq şəraitində yaşadığı Azərbaycanda multikulturalizm əsrlərdən bəri alternativi olmayan həyat tərzinə çevrilmişdir. Mövcud milli-mədəni rəngarənglik xalqların qarşılıqlı mənəvi zənginləşməsinə imkan yaratmaqla yanaşı, ölkəni beynəlxalq miqyasda çoxmillətli və çoxkonfessiyalı diyar kimi tanıtmışdır.

Toplanmış böyük təcrübənin davamı kimi həmin mədəni müxtəliflik mühiti respublikada təmsil olunan bütün dini icma və konfessiyaların birgə fəaliyyəti sayəsində bu gün də lazımınca qorunur. Azərbaycan cəmiyyətində bərqərar olmuş yüksək tolerantlıq mühitinin gücləndirilməsi müstəqil dövlətçiliyin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini və onların maddi durumunun daha da yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 250,0 (iki yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 250,0 (iki yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 100,0 (yüz) min manat, Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası dini qurumuna 100,0 (yüz) min manat və Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasına 100,0 (yüz) min manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2016-cı il.*

## Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı mənəviyyatı möhkəmləndirən, müsəlmanlar arasında dini-mənəvi birlik duyğusunu gücləndirən, hər bir şəxsin daxili kamilliyinin formalaşmasına xidmət edən aylardan biridir. Bu bayram insanları savab əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır.

İslam dünyasının mədəni mərkəzlərindən biri kimi tanınmış Azərbaycanda dini və milli-mənəvi dəyərlərə hörmət həmişə xüsusi həssaslıqla qorunub saxlanılmışdır. Bu gün əsl tolerantlıq örnəyinə çevrilən ölkəmizdə ayrı-ayrı dinlər və təriqətlər arasında qarşılıqlı hörmətin inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Azərbaycanda müxtəlif milli və dini mərasimlər, o cümlədən, Ramazan bayramı hər il dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunur. Eyni zamanda məmnunluqla deyə bilərik ki, ölkəmizdə yaşayan bütün dinlərin nümayəndələri bəşəri hadisə olan Ramazan bayramına böyük sevgi ilə yanaşır, ölkəmizin multikultural ənənələrini ehtiramla qoruyurlar.

Əziz bacı və qardaşlarım!

İnsanlarda vəhdət və humanizm duyğularını, Allah və vətən sevgisini daha da gücləndirən Ramazan bayramı hər il olduğu kimi, bu il də bütün xalqımız tərəfindən böyük ruh yüksəkliyi və könül xoşluğu ilə qeyd edilir. Bu əziz bayram günlərində sizi və ölkəmizdən kənarda yaşayan soydaşlarımızı bir daha təbrik edir, hər birinizə firavanlıq, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 4 iyul 2016-cı il.*

## M.İ. Yevdayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə Milix İlxananoviç Yevdayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev***
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 iyul 2016-cı il.

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

*Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri iyulun 18-də Prezident İlham Əliyevə minnətdarlıq məktubu ünvanlayıblar*

**Möhtərəm cənab Prezident.**

Biz – Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri Zati-alinizə səmimi arzularımızı və xeyir-dualarımızı yetirir, multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafına, dini qurumların problemlərinə həssas münasibətinizə və özəl qayğınıza görə dərin minnətdarlığımızı bildiririk.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində və iqtisadi qüdrətinin artmasında Sizin misilsiz xidmətləriniz vardır. Siz, bir dövlət başçısı kimi milli-mənəvi dəyərlərin, dini və tarixi abidələrin qorunması sahəsində böyük işlər görürsünüz. Bu gün dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları ölkəmizdə mövcud olan vicdan və dini etiqad azadlığından, dövlət-din münasibətlərindən və demokratik-hüquqi şəraitdən lazımınca yararlanırlar. Azərbaycanda müsəlmanlarla yanaşı, pravoslav, katolik, yəhudi, alban-udi və digər dini icmalar da milli-mənəvi dəyərlərdən sərbəst istifadə edir, ölkəmizin ictimai həyatında yaxından iştirak edirlər.

Bu gün Ümummilli Lider Heydər Əliyevin banisi olduğu müstəqil və demokratik Azərbaycan Respublikası beynəlxalq aləmlə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir, nüfuzlu beynəlxalq və regional təşkilatlarda təmsil olunur. MDB müsəlmanları Məşvərət Şurasının, Qafqaz xalqları Ali Dini Şurasının iclasları, Dünya Dini liderlərinin beynəlxalq Sammiti Bakıda keçirilir və dinlərarası dialoqu, multikulturalizmi, sivilizasiyalararası əməkdaşlığı təcəssüm etdirir. Dini icma rəhbərləri və dindarlar bu müstəvidə qarşılıqlı münasibətlərin inkişafına müsbət təsir göstərən bütün səyləri təqdir edirlər. Əminik ki, Zati-alinizin və Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyevanın dəstəyi ilə bizim hər zaman təbliğ etdiyimiz və dünyaya multikulturalizmin bariz nümunəsi kimi təqdim etdiyimiz Azərbaycanın tolerantlıq modeli bəşəri dəyərlərin təşviqinə və təkamülünə öz töhfəsini verəcəkdir, inşallah!

Möhtərəm cənab Prezident, bu müraciəti imzalayanlar şəxsən Sizinlə görüşlərin dərin təəssüratını, özəlliklə son Ramazan iftarı zamanı çıxışınızdakı səmimi ünsiyyəti heç vaxt unutmayacaqlar. Siz həmişə dini icmaların problemlərinə diqqətlə yanaşmış, bizə maddi və mənəvi dəstək olmusunuz. Azərbaycanda dini qurumlara maddi yardım göstərilməsi haqqında 2016-cı il 5 iyul tarixli Sərəncamınız xaricdə yaşayan dindaşlarımız arasında böyük əks-səda doğurdu, ünvanımıza çoxlu telefon zəngləri və təbriklər gəldi, bəzi yerlərdə bu fakt hətta təəccüblə qarşılandı. Bunun səbəbi bəllidir - Sizin bu alicənab addımınız sadəcə maddi yardım deyildir, dünyada nadir və analoqu olmayan bir dövlətçilik təcrübəsidir. Bu addımınızla Siz Heydər Əliyevin siyasətinin və dövlətçilik məktəbinin layiqli davamçısı olduğunuzu, dini dəyərlərə ailənizə məxsus olan ehtiram hissini bir daha dünyaya nümayiş etdirdiniz. Dini icmalarımız üçün çox önəmli olan bu yardımın mübarək Ramazan ayında verilməsi ölkəmizdəki dini bərabərlik və nadir tolerantlığın ən bariz nümunəsi sayılmalıdır. Biz bu Sərəncamınıza görə Zati-alinizə dərin təşəkkürümüzü bildirir, Sizə və ailənizə cansağlığı və səadət arzulayırıq.

Biz dindarlar Azərbaycan xalqının gələcəyi və rifahı naminə Sizin fəaliyyətinizi hər zaman bəyənir və dəstəkləyirik. Ümid edirik ki, Qarabağ problemi tezliklə beynəlxalq hüququn normaları çərçivəsində sülh yolu ilə öz həllini tapacaq, Uca Yaradanın köməyi və Sizin rəhbərliyinizlə Azərbaycan xalqı dünya miqyasında daha böyük uğurlara imza atacaq, haqqın qalibiyyəti Zati-alinizlə olacaqdır. Bu, bizim ümidimiz və Sizə ünvanlanan dualarımızdır.

Uca Yaradan hər zaman yardımçınız olsun. Amin!

*Dərin hörmət və ehtiramla,*

***Şeyxülislam Allahşükür PAŞAZADƏ***
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*
***ALEKSANDR İşein***
*Bakı və Azərbaycanın arxiyepiskopu*
***Vladimir FEKETE***
*Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi*
***Milix YEVDAYEV,***
*Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri*
***Gennadi ZELMANOVİÇ***
*Avropa yəhudilərinin Bakı icmasının sədri*
***Robert MOBİLİ***
*Alban-udi dini icmasının sədri*

# DQİDK-da kollegiya iclası keçirilib



(əvvəli 1-ci səhifədə)

Sədr bildirib ki, Dövlət Komitəsi tərəfindən 2016-cı ilin 6 ayı ərzində Azərbaycanın zəngin tolerantlıq ənənələrinin ölkə daxilində və beynəlxalq aləmdə təbliğ edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Bu tədbirlər nəticəsində ölkədə dini radikalizmlə mübarizə, qeyri-qanuni ibadət yerlərinin fəaliyyətinin dayandırılması, dini nifrəti və ayrı-seçkiliyi ehtiva edən, eləcə də ölkəyə qeyri-qanuni idxal edilmiş dini təyinatlı ədəbiyyat və məmulatların satışının qarşısının alınması istiqamətində ciddi uğurlar əldə edilib. Ötən dövrdə 630 adda dini məzmunlu ədəbiyyata baxılıb, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 40 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb.

Mübariz Qurbanlı bildirib ki, dini qurumların dövlət qeydiyyatına alınması prosesi cari ilin altı ayında da davam etdirilib, 26 dini qurum dövlət qeydiyyatına alınıb və beləliklə, qeydiyyata alınmış dini qurumların ümumi sayı 707-ə çatıb.

Dövlət Komitəsinin sədri dini maarifləndirmə istiqamətində aparılan tədbirlərindən də bəhs edərək cari ilin 6 ayı ərzində Komitə tərəfindən milli-mənəvi dəyərlərimizin təbliği, radikalizmə qarşı mübarizədə maarifləndirici xarakterli 9 adda kitabın nəşrə hazırlandığını iştirakçıların diqqətinə çatdırıb.

Qeyd olunub ki, DQİDK ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili işlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Dövlət Sərhəd Xidməti, Gənclər və İdman Nazirliyi Bakı şəhər Gənclər və İdman Baş İdarəsi ilə birgə Tədbirlər Planı imzalanıb və 6 ay ərzində icra olunub. Dövlət Komitəsi ilə digər dövlət strukturları arasında ümumilikdə 330-a yaxın, o cümlədən "Multikulturalizm ili" çərçivəsində 100-ə yaxın tədbir təşkil edilib.

M.Qurbanlı bildirib ki, hesabat dövründə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş, dini radikalizm və ekstremizmə qarşı mübarizənin psixoloji, hüquqi, siyasi və mənəvi aspektlərindən bəhs edən "Fitnə" filmi ölkənin bütün regionlarında nümayiş edilib.

Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərilməsi üçün 2014-cü il 27 noyabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində intensiv tədbirlər görülüb. Ölkənin bütün bölgələrini əhatə edən 121 dini icmaya maliyyə vəsaiti ayrılıb. Həmin dini icmaların layihələri çərçivəsində keçirilən və ümumilikdə sayı 370-ə çatan tədbirlərdə 30 minə yaxın insanın iştirakı təmin olunub.

Cari ilin ilk 6 ayı ərzində Dövlət Komitəsinə 1250 məktub, 622 qanunvericilik sənədi daxil olub və onların 95 faizi icra edilib, digərləri icra prosesindədir.

Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov



hesabat məruzəsi ilə çıxış edərək, cari ilin 6 ayı ərzində DQİDK tərəfindən dini radikalizmlə mübarizə istiqamətində silsilə tədbirlər keçirildiyini diqqətə çatdırıb. O, radikal dini qrupların və qeyri-ənənəvi təriqətlərin zərərli təbliğatının qarşısının alınması, onlara qarşı effektiv mübarizə aparılması, dini maarifçilik işinin düzgün metodlarla təşkili məsələlərinə toxunub. Sədr müavini bildirib ki, son illərdə dövlət-din münasibətlərinin milli təhlükəsizlik və milli maraqlar baxımından düzgün istiqamətləndirilməsi məqsədilə mövcud qanunvericilik bazası təkmilləşdirilib, hüquqi aktlara zəruri əlavə və düzəlişlər edilib. Dövlət Komitəsinin səlahiyyətləri artırılmaqla əhali arasında geniş miqyaslı maarifləndirmə, qabaqlayıcı və profilaktik xarakterli tədbirlər keçirilməkdədir.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov öz çıxışında Ramazan ayı ilə bağlı təşkil edilən tədbirlərdən, Komitənin keçirdiyi monitorinqlərdən danışıb. O bildirib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən hər il olduğu kimi, bu il də Ramazan ayı boyunca respublikada dini durum nəzarətdə saxlanılıb, məscid və ziyarətgahlarda mütəmadi monitorinqlər keçirilib, eləcə də dini maarifləndirmə sahəsində silsilə görüş və konfranslar təşkil edilib. Ramazan ayı ərzində Dövlət Komitəsinin Mərkəzi Aparatına yerlərdən daxil olmuş məlumatlar ümumiləşdirilərək təhlil olunub, respublikada ümumi dini durumun qiymətləndirilməsi aparılıb. Ə.Zülfüqarov bildirib ki, ümumən Ramazan ayı yüksək səviyyədə keçib, ay boyu müvafiq tədbirlərin keçirilməsi üçün dini icmalara dövlət tərəfindən lazımi qayğı və dəstək göstərilib.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev toplantıda çıxış edərək ölkəmizdəki dini vəziyyət, dini maarifləndirmə işləri barədə danışıb. Dövlət müşaviri "Multikulturalizm ili" çərçivəsində DQİDK, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu tərəfindən həyata keçirilən birgə tədbirlərin önəmini vurğulayıb. Dövlət müşaviri Azərbaycanda dövlət-din müna-



sibətlərinin sağlam təməl üzərində formalaşdığını və inkişaf etdiyini bildirib. O vurğulayıb ki, milli-mənəvi dəyərlərin inkişafına dövlət tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir. Qeyd edilib ki, Azərbaycan multikulturalizminə olan maraq respublikamızın dünyada tarixi örnək dəyərlərə malik ölkə kimi tanıdılmasının nəticəsidir.

İclasda cari ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparılıb, təkliflər səsləndirilib.

Dövlət Komitəsinin hesabat dövründə gördüyü işlər qənaətbəxş hesab edilib.

Hesabat yığıncağının sonunda Dövlət Komitəsinin Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə "Tərəqqi" və "Dövlət qulluğunda fərqlənməyə görə" medalları ilə təltif edilmiş 8 əməkdaşına medallar təqdim edilib.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Balakəndə vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı iyulun 27-də Balakən şəhərindəki Mədəniyyət Mərkəzində Qax, Zaqatala və Balakən rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl DQİDK sədri Mübariz Qurbanlı və Balakən Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Azad Balayev Ümummilli Lider Heydər Əliyevin mədəniyyət və istirahət parkında ucaldılan abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Qəbul zamanı vətəndaşların müraciətləri, əsasən, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini mərkəzlərin müvafiq ədəbiyyatla təminatı, dini maarifləndirmə üzrə layihələrin maliyyələşdirilməsi və digər məsələlərlə bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı aidiyyəti qurumlara müraciət etmələri tövsiyə olunub.



# "Dövlət həmişə dinin və dindarların yanındadır"

**Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev iyulun 7-10-da Qarabağ və Gəncəbasar bölgəsində səfərdə olub. Bərdə İmamzadəsində, Ağcabədi, Tərtər, Ağdam, Goranboy, Naftalan, Yevlax Cümə məscidləri və ziyarətgahlarında yerli və ətraf rayonların ziyalıları, din xadimləri ilə, eyni zamanda bir neçə hərbi hissədə maraqlı və faydalı görüşlər keçirilib.**

**Dövlət müşaviri səfərlə bağlı fikirlərini və təəssüratlarını AZƏRTAC ilə bölüşüb.**



**- Kamal müəllim, əvvəlcə səfərinizin məqsədi və səfər etdiyiniz rayonlar haqqında məlumat verməyinizi xahiş edirik.**

- Bilirsiniz ki, Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqına səmimi sözlərlə dolu təbrikini ünvanladı. Bu təbrikdə Prezident Ramazan bayramının təkcə ölkəmizdəki müsəlman əhalinin yox, eyni zamanda bütün digər dinlərə mənsub insanlarımızın da bayramı olduğunu, hər bir vətəndaşımızın bu müqəddəs, bəşəri günü birgə qeyd etdiyini vurğuladı. Bu, Azərbaycan xalqına xas multikulturalizmin və tolerantlığın təntənəsi, bu istiqamətdə aparılan uğurlu dövlət siyasətinin nəticəsidir. Bu il həm də ölkəmizdə "Multikulturalizm ili" olduğundan düşündük ki, yaxşı olardı, cənab Prezidentin Ramazan təbrikini insanlarımıza – dindarlarımıza, Vətənin müdafiəçiləri olan əsgərlərimizə birbaşa çatdıraq və bu əziz bayramı onlarla birgə qeyd edək. Elə bu məqsədlə iyulun 7-10-da Qarabağ və Gəncəbasar bölgəsində səfərdə oldum və orada ictimaiyyət nümayəndələri, din xadimləri və Vətənimizin, xalqımızın, dövlətimizin keşiyində mərd-mərdanə dayanan əsgər və zabitlərimiz ilə görüşdük. Prezidentin Ramazan təbrikini onlara çatdırdıq.

**- Qarabağ bölgəsində insanların əhval-ruhiyyəsi necə idi? Son dövrdə cəbhədə baş verən hadisələr sakinləri narahat etməyib ki?**

- Mən 2 il öncə də bu bölgəyə səfər etmişdim. Əminliklə deyə bilərəm ki, aprel ayında baş verən və ordumuzun qələbəsi ilə bitən qızğın döyüşlərdən sonra Qarabağ bölgəsində yaşayan insanlarımızın ruhu sanki təzələnib. Onların balacasından ağsaqqalına qədər hamısı Vətənin müdafiəsinə qalxmağa hazır olduqlarını bildirir və hər addımda cani-dildən məhəbbət və ehtiram bəslədikləri Ali Baş Komandanın əmrini səbirsizliklə gözlədiklərini dilə gətirirlər. Ağdamın Sarıcalı, Çəmənli, Xındırıstan kəndlərinin sakinləri, bərdəlilər, tərtərlilər, goranboylular, ağcabədililər hamısı son dövrlərdə cəbhədə baş verən hadisələrdən dərhal sonra Prezident İlham Əliyevin öz xanımı ilə birlikdə birbaşa düşmən artilleriyasının atəş zonasında yerləşən, mənfur düşmənlərin dağıtdığı dinc əhalinin yaşayış evlərini ziyarət etməsini çox yüksək dəyərləndirir, onların belə bir təhlükəli yerdə yaşamasının yeganə səbəbinin Vətən eşqi və yeganə səbəbkarının ölkə Prezidenti olduğunu dönə-dönə qeyd edirdilər. Bu gün Qarabağ bölgəsində yaşayan hər bir insan mərd və cəsur Azərbaycan əsgəri kimi Vətənin keşiyindədir. Dillərinin əzbəri olan bir söz var: "Cənab Prezident bizə dedi ki, mən sizinlə qürur duyuram".

**- Dindarların dövlətimizin başçısının apardığı siyasətə, xüsusən din-dövlət münasibətlərinə münasibəti necədir?**

- Ulu öndər Heydər Əliyev ölkəmizdə din-dövlət münasibətlərinin ən ali formasını necə müəyyənləşdirmişdisə, bu gün də cənab İlham Əliyev tərəfindən bu siyasət ləyaqətlə davam etdirilir. Ölkəmizdə təkcə əksəriyyət təşkil edən müsəlmanlara deyil, bütün digər ənənəvi din nümayəndələrinə də bərabər münasibət göstərilir. Dini mənsubiyyətindən asılı olmayaraq bütün dindarlar bundan çox razıdırlar. Onlar hər zaman dövlətin yanında olduqlarını qeyd edir və bunu dövlətə və dövlətçiliyə xidməti borc kimi dəyərləndirirlər. Bilirsiniz, Azərbaycan dünyəvi dövlətdir, burada din dövlətdən ayrıdır. Amma dövlət həmişə dinin və dindarların yanındadır. Bunu ölkə Prezidenti hər dəfə qeyd edir. Qədim Şamaxı məscidinin, Gəncə İmamzadəsinin abadlaşdırılması və yenidən istifadəyə verilməsi, Bakıda möhtəşəm Heydər məscidinin inşa olunub dindarların istifadəsinə verilməsi, dini konfessiyalara dövlət büdcəsindən maliyyə yardımlarının ayrılması, rayon mərkəzlərindəki cümə məscidlərinin hər birinin abad və gözəl olması dövlətin dinə münasibətinin bariz nümunəsidir. Bunu Bərdə İmamzadəsində, Gəncə İmamzadəsində, olduğum bütün digər məscidlərdə din xadimləri xüsusi ehtiramla dilə gətirdilər.

**- Dindarlarımız, xüsusən onların toplaşdıqları məscidlərimiz dövlətin dindarlardan gözləntilərinə adekvatdırmı?**

- Maraqlı məqama toxundunuz. Hesab edirəm ki, məscidlərimiz və bir çox din xadimlərimiz hələ də dövlətin onlardan gözləntilərini doğrultmur. Bizdə dövlətə və dövlətçiliyə xidmətin nümunəsi şeyxülislamlıq institutu və bu gün bütün Qafqazın şeyxi Allahşükür Paşazadə nümunəsi var. Məncə dindarlarımız dövlətimizin və dövlətçiliyimizin yad dini təsirlərdən qorunmasında daha fəal olmalı, məscidlərimiz təkcə namaz qılınan, ehsanlar verilən məkan yox, həm də elm, fəzilət, mərifət, dövlətçilik, Azərbaycançılıq ocaqları olmalıdır. Biz hamımız bu istiqamətdə çalışmalıyıq.

**- Mətbuatda məlumat yayılmışdı ki, siz Gəncə İmamzadəsində təkcə Gəncənin deyil, o regionda olan əksər din xadimləri ilə birgə görüşmüsünüz, hətta tədbirdə qadın axundlar da iştirak ediblər. Bu görüş haqda fikirləriniz oxucularımız üçün maraqlıdır.**

- Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində təmir və bərpa olunaraq möhtəşəm ziyarətgah kompleksinə çevrilən Gəncə İmamzadəsi Azərbaycanın ən gözəl müqəddəs məkanlarından biridir. Bura ziyarətə gələn hər bir kəs əvvəlcə gözəl memarlıq nümunəsi və səliqə-sahmanla qarşılaşır. İmamzadədə təkcə Gəncə şəhərinin deyil, ətraf rayonların - Naftalan şəhəri, Qazax, Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa rayonlarının axund və imamları ilə görüşdük. Əvvəlcə Prezidentin Ramazan təbrikini onlara çatdırdıq. Daha sonra dindarlarla ölkəmizdəki dini durum, din-dövlət münasibətləri, tolerantlığın və multikulturalizmin Azərbaycan modeli haqqında fikir mübadiləsi apardıq. Onları maraqlandıran məsələlərə aydınlıq gətirdik. Bu işdə mənə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin regionlar üzrə şöbə müdirlərinin və Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələrinin böyük köməyi oldu. Eyni zamanda, hər bir rayon və şəhərdə icra strukturlarının da fəaliyyətini xüsusi qeyd etmək olar. Sevindirici hal ondan ibarət idi ki, dini məzhəbindən asılı olmayaraq hər bir dindar dövlətə və dövlətçiliyə xidmət naminə bir olduqlarını söyləyirdilər. Bu görüşdə Gəncədə fəaliyyət göstərən və axundları xanımlar olan qadın məscidinin axund və icma üzvləri iştirak edirdilər. Onların da dinə və dövlətçiliyimizə münasibəti olduqca səmimi və birmənalı idi. Qadın axundlar ölkəmizin birinci xanımı Mehriban Əliyeva ilə görüşlərini sevinclə xatırladılar, birinci xanımın gördüyü xeyirxah işlərdən ürək dolusu söhbət açdılar, razılıq etdilər.

Mən Gəncədə olarkən tarixi Şah Abbas məscidini və Rus Pravoslav Kilsəsini də ziyarət etdim, dindarlarla görüşdüm. Rus Pravoslav Kilsəsinin baş keşişi Varfolomey Ata, həmçinin Gəncə şəhər Yəhudi Dini İcmasının sədri Arif Babayev bizimlə birgə İmamzadədə tədbirdə iştirak etdi, həmçinin onlar İmamzadədə təşkil edilən bayram süfrəsində də bizimlə birlikdə oldular. Bu isə təkcə Azərbaycana xas olan unikal tolerantlıq mədəniyyətidir.

**- Səfər çərçivəsində ön cəbhədə hərbi xidmət edən əsgər və zabitlərimizlə də görüşmüsünüz. Azərbaycan Ordusunun hazırki mənəvi durumu və əsgərlərimizin əhvalı ilə bağlı nə deyə bilərsiniz?**

- Bayram günlərində düşmənlə üzbəüz mövqelərimizdə xidmət edən əsgərlərimizi görmək, onlarla bir süfrədə nahar etmək, düşməndən yenicə azad edilmiş torpaqlarımızdan düşmən mövqelərini müşahidə etmək unudulmaz və qürurverici idi. Səfər çərçivəsində 3 hərbi hissədə oldum. Əsgərlərlə və zabitlərlə görüşdüm, onlarla son dövr cəbhədə baş verən hadisələrin bütün xalqımızda yaratdığı yeni qalibiyyət ruhu və arzusu barədə söhbətlər etdik. Mərd, qorxmaz və cəsur əsgərlərimizin döyüş ruhu, Vətən məhəbbəti məni hədsiz qürurlandırdı. Onların sözünün əvvəli də, sonu da bu şəkildə bitirdi: "Torpaqlarımızı həmin an azad etmək üçün Ali Baş Komandanın əmrini səbirsizliklə gözləyirik".

Tapqaraqoyunlu kəndi istiqamətində qəhrəman tankçılarımızın və topçularımızın düşməndən təmizlədiyi doğma torpaqlarımıza qədəm basmaq, üçrəngli bayrağımızın o yerlərdə dalğalandığını görmək necə də xoş və qürurvericidir. Bu hissləri tezliklə Dağlıq Qarabağın müxtəlif yerlərinə qədəm basdığımızda da yaşayacağımıza əminəm. Cənab Ali Baş Komandanın siyasəti bizi tam qələbəyə doğru aparır.

**- Alimlərimiz, ictimai xadimlərimiz ordumuza necə kömək olmalıdır?**

- Biz peşəsindən, ictimai, siyasi mənsubiyyətindən, vəzifəsindən asılı olmayaraq hamımız ordumuzun yanında olmalıyıq. Ordu xalqın dəstəyini, ziyalılarımızın onlarla olduğunu görəndə daha əzəmətli və qətiyyətli olur.

Bu gün ordu quruculuğu sayəsində ordunun nə ərzaq, nə geyim, nə də silah-sursat çatışmazlığı problemi yoxdur. Biz sadəcə öz qəlbimizlə, cismimizlə, ruhumuzla əsgərlərimizin yanında olmalıyıq. Gənc zabitlərimiz, əsgərlərimiz intellektual ünsiyyətə, tariximiz, mədəniyyətimiz, dinimizlə bağlı fikir mübadilələrinə bəzən mənəvi ehtiyac duyur. Bu istiqamətdə maraqlı layihələr həyata keçirməyi düşünürük. Onlara təkcə nəyisə öyrətmək yox, eyni zamanda, onlardan öyrənməyi də qarşıya məqsəd qoymalıyıq.

**- Səfər əsnasında görüş keçirdiyiniz əsgər və zabitlərimizin sizdən hansısa istək və ya xahişləri oldumu?**

- Əsgər və zabitlərimizin əsas xahişləri də elə bu oldu. Hərbi hissələrdə mütəmadi olaraq müxtəlif mövzularda, əsasən də tariximizlə, mədəniyyətimizlə, bu günümüzlə bağlı "dəyirmi-masa"lar, elmi müzakirələr, dinləmələr keçirilsin. Müzakirələr elə bir rejimdə keçirilsin ki, əsgər və zabitlər də müzakirələrə qoşulub fəal iştirak edə bilsinlər. Hərbi hissələrimizdə dövlətçiliyimiz, vətənpərvərlik tərbiyəsi, tariximiz, ədəbiyyatımız və başqa mövzularda konfransların, tədbirlərin keçirilməsi üçün çox gözəl şərait var. Dediyim kimi, bu təklifləri yaxın vaxtda dəyərləndirməyi düşünürük.

**- Kamal müəllim, bu səfər yeni layihə və proqramların icrasına başlamaq üçün rəhbərlik etdiyiniz Xidmətin qarşısına hansı yeni vəzifələr qoydu?**

- İnsanlarla ünsiyyət, onları dinləmək həmişə yeni ideyaların ortaya çıxmasına yol açır, yeni layihələrə başlanğıc verir. Məscidləri ziyarət etdikdə orada yaradılmaqda olan məscid kitabxanalarının daha da zənginləşdirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Milli Kitabxana, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bu sahədə birgə fəaliyyət göstərməsi üçün yeni layihələrə başlayacağımızı düşünürəm. Həmçinin müxtəlif bölgələrdən olan din xadimlərimizin bir-biri ilə görüşlərinin təşkili, hansısa sosial, mənəvi məsələ ilə bağlı onların fikir mübadiləsi aparması üçün imkanların yaradılması da yeni ideyalardandır.

Həmçinin hərbi hissələrimizdə ictimaiyyət nümayəndələri, dövlət rəsmiləri, alimlərimizlə əsgər və zabitlərimizin "dəyirmi-masa", konfrans formatında görüşlərinin təşkili də yeni ünsiyyət forması sayıla bilər. Bu istiqamətlərdə işlərimizi daha intensiv şəkildə davam etdirəcəyik.



# Qəbələdə "Alban Apostol kilsəsinin keçmişi və bu günü" mövzusunda beynəlxalq konfrans keçirilib

İyulun 20-də Qəbələ şəhərində Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"na əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Müəllif Hüquqları Agentliyi və Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının birgə təşkilatçılığı çərçivəsində qədim Qafqaz Albaniyası ilə bağlı "Alban Apostol kilsəsinin keçmişi və bu günü" mövzusunda beynəlxalq konfrans keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Konfransda Norveç, Türkiyə və Rusiyadan görkəmli albanşünas mütəxəsssislər, tarixçilər, ziyalılar, Qəbələdə keçirilən "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: milli və dini dəyərlər" adlı III Beynəlxalq Multikulturalizm yay məktəbinin 16 ölkədən 75 nəfər iştirakçısı, o cümlədən 20 İyul - "Beynəlxalq Udi Mədəniyyəti Günü" münasibətilə dünyanın müxtəlif ölkələrindən özlərinin tarixi Vətənləri olan Azərbaycana toplaşan udilər iştirak ediblər.

Açılış mərasimində Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdullayev, DQİDK-nın sədri Mübariz Qurbanlı, AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli, Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov, Suriya avtokefal kilsəsi Deir-al-Zafaran monastrının mitropoliti Salib Özmen, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili çıxış ediblər.

Çıxışlarda Azərbaycanda "Multikulturalizm ili"ndə görülən işlər və nəzərdə tutulan tədbirlər barədə fikirlər səsləndirilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə tolerantlığın yüksək səviyyədə təmin olunduğu bildirilərək, Azərbaycanda yaşayan azsaylı xalqlara, eləcə də İslam və digər dinlərə etiqad edənlərə yaradılan şəraitdən danışılıb. Qeyd olunub ki, yaradılan şərait nəticəsində ölkəmizdə millətlərarası münasibətlər yüksək səviyyədə qurulub, dinlərarası ünsiyyət təmin edilib, Azərbaycan tolerant ölkə kimi bütün dünyaya nümunəyə çevrilib. Bildirilib ki, multikulturalizm çoxmədəniyyətlilik, fərqli mədəniyyətlərin birgə yaşaması, ayrı-ayrı insanların bir-birinin mədəniyyətinə və dünyagörüşünə hörmətlə yanaşmasıdır. Azərbaycan bu məsələdə hər zaman nümunəvi ölkə olub. Xalqımız qədimdən bəri cəmiyyətdə harmoniya yaranmasına şərait yaradıb. Azərbaycanda 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi bütövlükdə xalqımızın tarixi mədəniyyətinin bir daha parlaq şəkildə göstərilməsidir.

Çıxışlarda qeyd olunub ki, 1836-cı ildə Alban kilsəsinin ləğv edilərək Erməni Qriqoryan kilsəsinə birləşdirilməsi nəticəsində albanlara, o cümlədən udilərə qarşı böyük ədalətsizlik edilib. Hazırda udilərin hüquqlarının və ədalətinin bərpası istiqamətində işlər görülür. Azərbaycan hökuməti bu məqsədlə Alban-Udi İcmasına lazımi dəstək verir, icmanın fəaliyyəti üçün şərait yaradır.

Konfransda Azərbaycan Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov "Qafqaz Albaniyası və tarixi-coğrafi aspektdə genetik təhlil", Norveçin Oslo Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Byorn Veqqe "Yerusəlimdən Kişə", Alban-Udi Xristian dini icmasının sədri, Bakı Dövlət Universitetinin baş elmi işçisi Robert Mobili "Alban apostol avtokefal kilsəsinin varisi kimi Azərbaycanın Alban-Udi Xristian İcması" mövzusunda məruzələrlə çıxış ediblər.

Sonra konfrans işini plenar iclaslarla davam etdirib. Yerli və xarici albanşünas mütəxəssislər, tarixçilər, ziyalılar və ictimaiyyət nümayəndələri mövzu üzrə məruzələr edib, müzakirələr aparıblar.

Tədbirdə Qəbələ əhalisinin zəngin etnik tərkibindən söz açılıb. Qeyd olunub ki, rayon əhalisinin 78,9 faizini azərbaycanlılar, 17,1 faizini ləzgilər, 3,7 faizini udilər, 0,1 faizini türklər və 0,2 faizini digər millətlər təşkil edir. Burada milli mənsubiyyətindən asılı olmayaraq heç kimə fərq qoyulmur, hamı vahid ailə kimi yaşayır. Ümumtəhsil məktəblərinin ibtidai siniflərində ləzgilər və udilər üçün ana dillərində dərslər tədris olunur. Qəbələ şəhərinin 2, Nic qəsəbəsinin 3 məktəbində tədris rus dilində aparılır. Rayonda olan 43 məscid və 1 kilsədə qeydiyyata alınmış 22 İslam, 1 xristian dini icması mövcuddur və burada hər bir vətəndaşa dini inancını və ayinləri icra etmək üçün lazımi şərait yaradılıb. Bu gün udilərin kompakt şəkildə yaşadığı yeganə məkan, onların tarixi Vətəni olan Qəbələ rayonunun Nic qəsəbəsidir. Burada udilərin tarixi qorunub saxlanılır və araşdırılır. Onların dil, din, özünəməxsus mədəniyyət və adət-ənənələri inkişaf etdirilir, udi xalqının qədim məbəd və kilsələri, tarixi abidələri bərpa olunur, qorunur.

Sonra Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdullayev və DQİDK-nın sədri Mübariz Qurbanlı "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: milli və dini dəyərlər" adlı II Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları ilə görüşüblər. Konfrans iştirakçıları Nic qəsəbəsinə səfər edərək, Müqəddəs Yelisey Alban kilsəsi ilə tanış olublar.

Konfransdan sonra "Beynəlxalq Udi Mədəniyyət Günü"nə həsr olunmuş tədbirlər keçirilib.

# "Dini ekstremizmə qarşı mübarizə" mövzusunda seminar-müşavirə

İyulun 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qaradağ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini ekstremizmə qarşı mübarizə" mövzusunda seminar-müşavirə keçirilib. Müşavirə iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Baş Prokurorluq, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin Qaradağ və Səbail rayonlarının yerli strukturlarının nümayəndələri, ziyalılar, dindarlar və ictimai fəalların iştirak etdikləri tədbiri giriş sözü ilə açan Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov dini radikalizm və ekstremizmlə mübarizənin əhəmiyyətini vurğulayaraq, bu istiqamətdə həyata keçirilmiş tədbirlərdən söz açıb.




Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov dünyada, xüsusilə Yaxın Şərqdə dini radikalizm və ekstremizmin acınacaqlı nəticələri haqqında danışıb. Bildirilib ki, dinin siyasiləşdirildiyi və ya siyasi oyunlar üçün alətə çevrildiyi ölkələr böyük fəlakətlərlə üzləşməkdədir. Bununla bağlı qardaş Türkiyə Respublikasında baş verən hadisələrin yolverilməz olduğu diqqətə çatdırılıb. S.Heydərov çıxışında Azərbaycandakı multikultural dəyərlərin hər kəs üçün örnək olduğunu və dünyaya ixracının aktuallığı məsələsinə də toxunub. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanan "Fitnə" sənədli filmi barədə də məlumat verən Dövlət Komitəsinin sədr müavini filmin dini radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəflərini özündə əks etdirdiyini bildirib. Filmdəki insanların dini radikalizmin təsirinə düşərək ailələrinin və özlərinin gələcəyini necə məhv etməsi bariz nümunələrlə göstərilib.

Daha sonra çıxış edən Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Hikmət Eyvazov təmsil etdiyi qurumun dini radikalizmlə mübarizə istiqamətində həyata keçirdiyi profilaktik və inzibati tədbirlərdən söz açıb. O, dini radikalizmin ictimai təhlükəsizliyə açıq təhdid olduğunu bildirərək, müştərək mübarizənin vacibliyini vurğulayıb. Həmçinin qeyd edib ki, Azərbaycanda bütün dinlərin və millətlərin nümayəndələri əmin-amanlıq və sabitlik şəraitində yaşamaqdadırlar.

Baş Prokurorluğun idarə rəisinin müavini Novruz Hacıyev dini radikalizm və onun fəsadları, eləcə də hüquqi müstəvidə aparılan mübarizə metodologiyası haqqında geniş məlumat verib. O, ölkəmizdə hər bir vətəndaşın dini etiqad azadlığının təmin olunduğunu, bununla yanaşı, yaradılmış etiqad azadlığdan digər məqsədlər üçün istifadənin yolverilməzliyini diqqətə çatdırıb. İctimaiyyətin dini radikalizmlə mübarizədə aktiv fəaliyyətinin vacibliyi vurğulanıb.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin Qaradağ rayonu üzrə səlahiyyətli nümayəndəsi Faiq Əhmədov ölkə başçısına dindarlara göstərdiyi qayğıya görə təşəkkürünü bildirib. O, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-din münasibətlərinin bu gün ölkəmizin inkişafına böyük töhfə verdiyini və dindarların daima bütün məsələlərdə dövlətin yanında olduğunu söyləyib.

## Nəsimi, Qobustan, Balakən rayonlarında

# “Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik”



**İyulun 12-də Bakı şəhəri Nizami rayonunda “Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik” mövzusunda konfrans keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Nizami Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşan konfransda hüquq-mühafizə orqanlarının nümayəndələri, dini icmaların rəhbərləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.**

Tədbirdə əvvəlcə dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən “Fitnə” sənədli filmi nümayiş olunub. Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov konfransın əhəmiyyətindən danışaraq ölkəmizdə multikultural mühitin dərin tarixi köklərə malik olduğunu bildirib. Multikulturalizmin dövlət siyasəti kimi əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu deyən icra başçısı bu siyasəti Prezident İlham Əliyevin uğurla davam etdirdiyini vurğulayıb.

DQİDK-nın sədri Mübariz Qurbanlı Azərbaycanda hökm sürən multikultural və tolerant mühitin əsasında azərbaycançılıq ideologiyasının dayandığını bildirib. Ölkəmizdə müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində, heç bir ayrı-seçkiliyə məruz qalmadan yaşadıqlarını deyən Komitə sədri xalqımızın bu ənənələrinin tarixi keçmişimizdən, mental dəyərlərimizdən qaynaqlandığını bildirib. Komitə sədri vurğulayıb ki, dini və milli mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər.

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə “Multikulturalizm ili” elan olunduğunu xatırladan Komitə sədri qeyd edib ki, bununla Azərbaycan xalqının dostluq, qardaşlıq şəraitində yaşamağa qadir olduğu bir daha bütün dünyaya nümayiş etdiriləcək.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva, Milli Məclisin deputatı Rasim Musabəyov qeyd ediblər ki, əhalinin dini baxışlarının sağlam müstəvidə formalaşdırılması, gənclərin radikal fikirli insanların təsiri altına düşməməsi və din xadimlərimizin bu istiqamətdə məlumatlandırılmasının təmin edilməsi üçün belə tədbirlərin keçirilməsinə ehtiyac var. Vurğulanıb ki, Prezident İlham Əliyevin apardığı düzgün və məqsədyönlü siyasət nəticəsində multikulturalizm Azərbaycanın dövlət siyasətinə, xalqımızın həyat tərzinə çevrilib.

* * *

Bu mövzuda növbəti konfrans iyulun 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Qobustan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilib.

Azərbaycanın multikulturalizm siyasətinin daha dərindən mənimsənilməsi, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqi, eləcə də bu sahələrdə qarşıda duran vəzifələrin müzakirə edildiyi tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qobustan Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, dini icma sədrləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.

Gənclər Mərkəzində keçirilən konfrans Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilən, dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən “Fitnə” sənədli filminin nümayişi ilə başlayıb.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Adil Məmmədov respublikamızda tarixən müxtəlif millətlərin nümayəndələrinin qarşılıqlı hörmət şəraitində birgə yaşadıqlarını, bir-birinin dilinə, dininə, adət-ənənələrinə hörmətlə yanaşdıqlarını vurğulayıb.

DQİDK sədri Mübariz Qurbanlı “Fitnə” sənədli filmində nümayiş etdirilən faciəli səhnələrdən danışarkən bildirib ki, aldadılaraq Suriyaya aparılan və orada həlak olan gəncin atasının keçirdiyi hisslər, terrorçuların təsiri altına düşən və həbsxanada yatan gənclərimizin peşmançılığı bu gün dini radikalizmin, İslam dinindən öz siyasi məqsədləri üçün istifadə edən qüvvələrin törətdikləri fitnəfəsadlara qarşı hamılıqla mübarizənin zəruriliyini ortaya qoyur.

Komitə sədri din pərdəsi altında aparılan münaqişələrdən danışaraq bildirib ki, dünyada aparıcı güclər din amilindən geosiyasi maraqları üçün istifadə edirlər. O qeyd edib ki, dünyanın bu böhranlı dövründə Azərbaycanda qlobal təhlükəsizlik məsələləri müzakirə olunur, tolerantlıq təbliğ edilir.

Vurğulanıb ki, Azərbaycanda dövlət-din münasibətlərinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Bu gün isə həmin münasibətlər bütün hüquqi dövlətlərdə olduğu kimi, Azərbaycanda da qanunlarla tənzimlənir. Bütün dinlərin qanunvericiliyə uyğun azad və sərbəst fəaliyyətinə icazə verilir.

Konfrans mövcud təhlükələrin ölkəyə yol tapmaması üçün valideynlərin ailədə, ziyalıların cəmiyyətdə təbliğat aparmalarının zəruriliyi vurğulanıb. Bu barədə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Mərəhməd Mustafayev gənc nəslin dini baxımdan daha da bilikli olması üçün məktəblərdə, müxtəlif təhsil müəssisələrində seminarların, təlimlərin təşkil olunmasının əhəmiyyətini qeyd edib.

* * *

Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi, etnik-dini dözümlülük mühiti tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir.

Burada müxtəlif xalqların nümayəndələri uzun illərdir ki, dostluq və mehriban qonşuluq şəraitində yaşayırlar.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransın əsas məqsədinin Azərbaycanın multikulturalizm siyasətinin daha dərindən mənimsənilməsinə, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqinə nail olmaq, bu sahədə qarşıda duran vəzifələri müzakirə etməkdən ibarət olduğunu diqqətə çatdırıb. Bildirib ki, DQİDK-nin sifarişi ilə hazırlanan “Fitnə” filmində dini ekstremizm və radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəfləri öz əksini tapıb. Film gənclərin maarifləndirilməsi, onların radikal dini cərəyanların təsiri altına düşməsinin qarşısının alınması, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi, ölkəmizdə mövcud olan tolerant mühitin qorunması və təbliği baxımından böyük əhəmiyyət daşıyır.



Vurğulanıb ki, multikulturalizm ölkəmizdə alternativi olmayan həyat tərzinə çevrilib. Müxtəlif dini inanclara malik insanların əsrlər boyu sülh şəraitində yaşadığı Azərbaycan dünyaya nümunədir.

Komitə sədri diqqəti son dövrlər dünyada İslam dinini radikalizmə sürükləmək meyillərinin artmasına çəkərək, bu sahədə maarifləndirmə işinin vacibliyini xüsusi vurğulayıb. Bildirib ki, dini radikalizm və ekstremizmə qarşı mübarizənin gücləndirilməsi üçün ölkəmizdə mühüm qanunvericilik bazası yaradılıb. 2015-ci ilin sonunda qəbul edilən “Dini ekstremizmə qarşı mübarizə haqqında” Qanun dini ekstremizmə qarşı mübarizənin təşkili və hüquqi əsaslarını müəyyənləşdirir, eyni zamanda belə hallara qarşı mübarizə aparan həm hüquq-mühafizə orqanlarının, həm də vətəndaşların vəzifələrini təsbit edir.

Məruzələrdən sonra iştirakçıların sualları cavablandırılıb.

Bu fikir iyulun 27-də Balakən rayon Mədəniyyət Mərkəzində keçirilən “Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik” mövzusunda keçirilən regional konfransda səsləndirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Balakən Rayon İcra Hakimiyyəti və Dövlət Sərhəd Xidmətinin Zaqatala sərhəd dəstəsinin birgə təşkilatçılığı ilə keçirilən konfransda Zaqatala, Balakən və Qax rayonlarında fəaliyyət göstərən dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, ictimaiyyət nümayəndələri, ziyalılar, gənclər, həmçinin DQİDK ilə Dövlət Sərhəd Xidməti arasında imzalanmış birgə Tədbirlər Planına uyğun olaraq sərhəd qoşunlarının “N” saylı hərbi hissəsinin zabit və əsgərləri iştirak ediblər.

Konfrans DQİDK-nin sifarişi ilə çəkilən, dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən “Fitnə” sənədli filminin nümayişi ilə başlayıb.

Rayon icra hakimiyyəti başçısının birinci müavini Azad Balayev tədbiri açaraq rayondakı mövcud dini durum barədə məlumat verib. Qeyd edib ki, iyirmiyə yaxın milli azlığın yaşadığı Balakən rayonu həmişə tolerantlığı və multikultural dəyərlərə sayğısı ilə tanınıb.



# Respublikamızın sürətli inkişafı Azərbaycan rəhbərliyinin müdrik siyasətinin bəhrəsidir





***"Müstəqil Azərbaycan bu gün öz daxili və xarici siyasəti, təbii sərvətləri ilə nəinki Qafqazın, eləcə də dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib. Ölkəmizdə milli-mənəvi, əxlaqi dəyərlərə dövlət tərəfindən yüksək diqqət və qayğı göstərilir. Respublikamızın sürətli inkişafı Azərbaycan rəhbərliyinin müdrik siyasətinin bəhrəsidir".***

Bu fikirlər Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Allahşükür Paşazadə və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının iyulun 21-də Zaqatala şəhərində dini icma rəhbərləri ilə keçirdikləri görüşdə səslendirilib.

Qafqaz Müsəlmanları İdarəsinin, Dövlət Komitəsinin və Zaqatala Rayon İcra Hakimiyyətinin rəsmiləri əvvəlcə Ümummilli Lider Heydər Əliyevin mədəniyyət və istirahət parkında ucaldılan abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Sonra icra hakimiyyətində aidiyyəti qurumların rəhbərlərinin iştirakı ilə görüş keçirilib.

Şeyxülislam Allahşükür Paşazadə və onu müşayiət edən şəxslər Zaqatala Şəhər Cümə Məscidinə gəlib, namaz qılıb, dualar ediblər.

Daha sonra Bakı İslam Universitetinin Zaqatala filialında rayonda fəaliyyət göstərən dini icma rəhbərləri və dindarlarla görüş olub. Görüşü rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə açaraq, Zaqatalada mövcud dini durum barədə məlumat verib. Bildirilib ki, rayonda hazırda 42 məscid fəaliyyət göstərir, 32 dini icma rəsmi olaraq qeydiyyatdan keçib. Vurğulanıb ki, qeyri-ənənəvi təriqətlərin zərərli təbliğatının qarşısının alınması, ölkədəki tolerantlıq mühitinin qorunub saxlanması istiqamətində QMİ və DQİDK tərəfindən həyata keçirilən tədbirlər əhali tərəfindən razılıqla qarşılanır.

Zaqatala rayonunda bir neçə dəfə olduğunu xatırladan şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Azərbaycanın bütün rayonları kimi, Zaqatala da sürətlə inkişaf edir. QMİ sədri deyib ki, bölgəyə budəfəki səfərinin məqsədi bu rayonlarda mənəvi həyatın necə inkişaf etdiyini öz gözləri ilə görmək, din xadimlərinin insanlara necə xidmət etmələri, müqəddəs Qurani-Kərimi xalqa necə çatdırmaları ilə əyani tanış olmaqdır.

Sovet dövründə dini təhsil verən ali məktəblərin açılmasının necə çətin olduğunu diqqətə çatdıran QMİ sədri, bu baxımdan Azərbaycanın rayonları içərisində yeganə olaraq Zaqatalada fəaliyyət göstərən Bakı İslam Universitetinin filialının çox böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Savadlı din xadimlərinə böyük ehtiyac duyulduğunu vurğulayan Allahşükür Paşazadə bildirib: "Sovet vaxtında və sonrakı dövrlərdə din xadimləri ancaq namaz qılmaq, oruc tutmaq və dua verməklə öz işlərini bitmiş hesab edirdilər. Ancaq indi cəmiyyət də, dünyadakı vəziyyət də sürətlə dəyişir. Bəzi qüvvələr dinimizə qarşı məzhəb ayrı-seçkiliyi salmaq üçün hər cür təxribata əl atırlar. Ona görə də din xadimlərimiz savadlı olmalıdırlar ki, öz sözlərini xalqa çatdıra bilsinlər".

Tədbirdə çıxış edən DQİDK sədri Mübariz Qurbanlı qeyd edib ki, hazırda dünyada olan münaqişələrin böyük hissəsi təəssüf ki, müsəlman dünyasına aiddir və bu, hər birimizi narahat edir. Komitə sədri İslam dünyasında belə hadisələrin baş verməməsi üçün əməli tədbirlərin həyata keçirilməsinin vacibliyini önə çəkib.

Vurğulanıb ki, müstəqilliyimizin bərpasından sonra ölkəmizdə bütün sahələr üzrə dövlətin siyasəti müəyyən edilib, istiqamətlər müəyyənləşdirilib. Azərbaycanın uğurları göz önündədir və bu uğurlar bölgələrin timsalında da aydın hiss olunur.

Tədbirdə QMİ sədrinin müavini, müfti Salman Musayev çıxış edərək, dövlətimizin dindarlar üçün hər cür şərait yaratdığını bildirib, din adamlarına bunu layiqincə qiymətləndirmələrini tövsiyə edib.

Görüşdə şeyxülislam Allahşükür Paşazadənin müvafiq əmri ilə Zaqatala-Balakən bölgə qazısı vəzifəsində çalışan İbrahim İbrahimovun Balakən rayonunun qazısı vəzifəsinə, Zaqatala rayonunun qazısı vəzifəsinə isə Malik Bilalovun təyin edildiyi bildirilib.

Günün ikinci yarısında şeyxülislam Allahşükür Paşazadə, DQİDK sədri Mübariz Qurbanlı və onları müşayiət edən şəxslər Balakən rayonunda da olublar.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb.

Rayon icra hakimiyyətində keçirilən görüşdə icra hakimiyyəti başçısının birinci müavini Azad Balayev Balakəndə mövcud dini durum barədə məlumat verib.

Sonra şeyxülislam Allahşükür Paşazadə və Komitə sədri Mübariz Qurbanlı Balakən şəhər məscidində dindarlarla görüşüb, məscidlərin imamlarına, dini icmaların rəhbərlərinə öz tövsiyələrini veriblər.

* * *

***İyulun 22-də isə Şəki şəhərində DQİDK və QMİ-nin birgə təşkilatçılığı ilə "Dövlət-din münasibətləri" mövzusunda müşavirə keçirilib. QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə və DQİDK-nın sədri Mübariz Qurbanlı müşavirədən əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.***

Tədbiri Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov açaraq, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, dövlət tərəfindən din sahəsinə xüsusi diqqət göstərilir və bu siyasət tolerantlığın tərkib hissəsi kimi həyata keçirilir. E.Usubov bu münasibətlərin formalaşmasında QMİ-nin və Dövlət Komitəsinin rolunu yüksək qiymətləndirib. Heç bir cəmiyyətin neqativ təsirlərdən sığortalanmadığını vurğulayan icra hakimiyyətinin başçısı bu gün cəmiyyətdə baş verən arzuolunmaz halların aradan qaldırılmasında, mənəviyyatın qorunmasında ictimaiyyətin, ziyalıların üzərinə böyük vəzifələrin düşdüyünü bildirib.

Müşavirədə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək, bölgəyə səfərlərinin əsas məqsədinin Prezident İlham Əliyevin bütövlükdə milli mənəvi dəyərlərin qorunması, dövlət-din münasibətləri ilə əlaqədar qəbul etdiyi qərarlar, Azərbaycanda multikultural dəyərlər, onların təbliği və təşviqi sahəsində görülən işlər barədə ictimaiyyəti, dindarları məlumatlandırmaq, müzakirələr aparmaq olduğunu bildirib. M.Qurbanlı qeyd edib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərə qayıdışı sürətlənib. O bu sahədə Ümummilli Lider Heydər Əliyevin xidmətləri xüsusi vurğulayıb, hazırda dövlət başçısının milli-mənəvi dəyərlərimizin, dövlət-din münasibətlərinin inkişafı istiqamətində həyata keçirdiyi işlərdən danışıb.

QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə çıxışında Azərbaycanda olan mövcud dini durum barədə məlumat verib. Vurğulanıb ki, bu gün Azərbaycan müxtəlif dinlər arasında səmimi münasibətlərin hökm sürdüyü, yüksək tolerantlıq mühitinə malik bir ölkəyə çevrilib. Vətəndaşlar Prezident İlham Əliyevin yürütdüyü siyasətdən, dini dəyərlərə olan ehtiramdan çox razıdırlar. Son günlər Türkiyədə baş verən hadisələrə toxunan Şeyxülislam Azərbaycan xalqının həmişə türk xalqının yanında olduğunu vurğulayıb, hadisələr zamanı şəhid olanların xatirəsinə ehtiramını ifadə edib. QMİ sədrinin birinci müavini, mufti Salman Musayev də çıxış edərək, dindarlara tövsiyəsini bildirib. Tədbir iştirakçılarının suallarıı cavablandırılıb. Müşavirədən sonra şeyxülislam Allahşükür Paşazadə, Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və onları müşayiət edən şəxslər Şəki "Cümə" məscidində cümə namazında iştirak ediblər. Qardaş Türkiyədə dövlət çevrilişi cəhdinin qarşısının alınmasında canlarını qurban verən şəhidlər üçün qaibanə cənazə namazı qılınıb.



Şeyxülislam Allahşükür Paşazadə, Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və onları müşayiət edən şəxslər günün ikinci yarısında Qax rayonunda olublar. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Qax şəhərinin mərkəzində ucaldılan abidəsi önünə gül dəstələri düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad olunub. Qax Rayon İcra Hakimiyyətində keçirilən görüşdə icra hakimiyyətinin başçısı Musa Şəkiliyev Qaxda mövcud dini durum barədə məlumat verib. Sonra Qax Cümə məscidində dindarlarla görüş olub. Qafqaz Müsəlmanları İdarəsi tərəfindən məscidə maddi yardım göstərilib. Qax rayonuna səfərləri çərçivəsində şeyxülislam A.Paşazadə və M.Qurbanlı Qaxingiloy kəndində yerləşən "Müqəddəs Georgi" kilsəsində də olublar. Məlumat verilib ki, ibadətgahda dini ayinlərin icrası üçün hər cür şərait yaradılıb. Kilsənin keşişi Petri Xomaraşvili göstərilən diqqətə görə gürcü icması üzvləri adından Azərbaycan dövlətinə minnətdarlığını bildirib.

# Multikulturalizmin təbliği və təşviqi terroru aradan qaldıracaq



Prezident İlham Əliyevin tövsiyəsi əsasında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə iyulun 18-də "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: milli və dini dəyərlər" adlı növbəti Beynəlxalq multikulturalizm yay məktəbi fəaliyyətə başlayıb.

Əvvəlcə tələbələr Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin məzarının önünə əklil və gül dəstələri qoyub, sonra Şəhidlər xiyabanını ziyarət ediblər.

Ziyarətdən sonra yay məktəbinin iştirakçıları Qəbələyə yola düşüblər.

* * *

III beynəlxalq multikulturalizm yay məktəbi iyulun 20-də Qəbələdə öz işini davam etdirib. İştirakçılar əvvəlcə Ulu Öndər Heydər Əliyevin Qəbələ şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Daha sonra tələbələr "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"na əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Müəllif Hüquqları Agentliyi və Azərbaycan Alban-Udi xristian dini icmasının birgə təşkilatçılığı ilə Qafqaz Albaniyası ilə bağlı "Alban Apostol kilsəsinin keçmişi və bu günü" mövzusunda beynəlxalq konfransa qatılıblar.

Yay məktəbinin iştirakçıları konfrans çərçivəsində keçirilən plenar iclaslarda Azərbaycan tarixinin orta əsrlər mədəniyyətinin nümunələrindən olan Alban Apostol kilsəsi haqqında ətraflı məlumat verilib.

* * *

Konfransdan sonra Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, BBMM-in Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayev, DQİDK-nın sədri Mübariz Qurbanlı, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli və Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov III Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları ilə görüşüblər.

Dövlət müşaviri Kamal Abdullayev tələbələri salamlayaraq onlarla görüşdən məmnun olduğunu bildirib. O deyib: "Bu günlər çox maraqlı və mənalı gündür. Dünən siz Nic kəndinə getməklə artıq yeni bir mədəniyyətin içərisinə daxil oldunuz və bildiyim qədər razı qalmısınız. Deməli, multietnik bölgə olan Qəbələni beynəlxalq multikulturalizm məktəbi üçün əsas məkan seçməkdə yanılmamışıq. Udilərin və Alban-Apostol kilsəsinin tarixi ilə bağlı beynəlxalq konfransda iştirak etdiyiniz üçün sizə təşəkkür edirəm. Bu konfransda iştirakınızla siz Azərbaycan xalqının qədimliyi ilə bağlı yeni maraqlı faktları öyrənmiş oldunuz.

Çox şadam ki, Azərbaycana olan marağınız zamanla məhəbbətə çevrilir, bununla da yeni dostluqların, əməkdaşlıqların təməli qoyulur. Düşünürəm ki, əgər dostlarımız bizim inandığımız həqiqətləri bizdən əvvəl kiməsə deyib sübut edirlərsə, deməli, dostlarımızı doğru seçmişik".

İ.Həbibbəyli, M.Qurbanlı, K.İmanov xarici tələbələrin müsəlman ölkəsi olan Azərbaycanda kilsə, sinaqoq, məscid, kirxa, buddist və zərdüştilik məbədlərinin bir arada necə fəaliyyət göstərdiyini öz gözləri ilə görmələrinin önəmini qeyd ediblər. Bunları görmək üçün praktik şərait yaratdığına görə beynəlxalq multikulturalizm məktəblərinin bu baxımdan əvəzsiz layihə olduğu diqqətə çatdırılıb.

* * *

Qəbələdəki "Qafqaz yeddi gözəl" otelində ADA Universitetinin prorektor müavini Anar Vəliyev tələbələrə "Terror multikulturalizmə qarşı" mövzusunda mühazirə oxuyub. Mühazirəçi BBMM-in təşəbbüsü ilə həyata keçirilən "Terror multikulturalizmə qarşı" layihəsinin əhəmiyyətindən bəhs edərək dünyada terrorun, bəşəri cinayətlərin geniş vüsət aldığı bir dövrdə mövzunun aktuallığını vurğulayıb. O, multikulturalizmin alternativi olmadığını bildirib və terror aktlarını dünyadakı milli, dini, irqi, mədəni müxtəlifliyi məhv etməyə yönələn bəşəri cinayət kimi səciyyələndirib. Dünyada multikultural dəyərlərin yayılmasının, multikulturalizmin təbliği və təşviqinin terroru aradan qaldıracağına ümidvar olduğunu bildirib.

Mühazirədə Dövlət müşaviri, akademik Kamal Abdullayev də iştirak edib və Azərbaycan multikulturalizminin xüsusiyyətləri ilə bağlı fikirlərini bölüşüb.

* * *

III Beynəlxalq multikulturalizm yay məktəbi proqram üzrə iyulun 25-də öz işini Bakıda davam etdirib.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, BBMM-in Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayev BBMM-də yay məktəbinin iştirakçıları ilə görüşüb.

Kamal Abdullayev tələbələri Multikulturalizm Mərkəzində salamlamaqdan məmnun olduğunu bildirib. Dövlət müşaviri 18-24 iyul tarixlərində Qəbələdə, İsmayıllıda, Şəkidə, Qaxda, Oğuzda, eləcə də Nic, Lahıc, İvanovka, Oğuzdakı "Yəhudilər məhəlləsi" kimi Azərbaycanın unikal multietnik bölgələrində fəaliyyət göstərən III Beynəlxalq multikulturalizm məktəbinin tələbələrin yaddaşında unudulmaz izlər buraxdığına inandığını deyib.

Litvadan olan tələbə Salomeya Lukaite və Yunanıstandan Dimitrios Asproulis onların öz təşəbbüsləri ilə yaratdıqları "Azərbaycanın gənc dostları" beynəlxalq klubunu təqdim edib. Sözügedən klubun üzvlüyündə indiyədək ölkəmizdə təşkil olunmuş beynəlxalq multikulturalizm məktəblərinin xarici tələbələri, eləcə də 13 xarici ölkədəki universitetlərdə Azərbaycan multikulturalizmi fənninin tədris olunduğu fakültələrin dinləyiciləri təmsil olunacaqlar.

Təqdimatdan məlum olub ki, bu klub üzvü olan hər bir xarici gənc üçün Azərbaycanda təhsil imkanları yaradacaq, onların ölkəmizlə bağlı aparacaqları tədqiqatlarda onlara yardımçı olacaq, Azərbaycan dilinin və mədəniyyətinin öyrənilməsində hər bir klub üzvünə köməklik göstərəcək. "Azərbaycanın gənc dostları" beynəlxalq klubunun yenicə fəaliyyətə başlayan internet saytı (www.youngfriends.az) və bu saytda üzvlər üçün yaradılmış imkanlar da diqqətə çatdırılıb.

Dövlət müşaviri K.Abdullayev belə bir klubun yaradılmasını yüksək dəyərləndirib. O qeyd edib ki, bu klub Azərbaycanın dünyada olan çoxsaylı dostlarını daha sıx birləşdirəcək və onların fəaliyyətini daha sistemli edəcək.

İyulun 26-da III Beynəlxalq multikulturalizm məktəbinin rəsmi bağlanış mərasimi keçirilib.



# "Mədəni müxtəliflik tolerantlıq müstəvisində" mövzusunda konfrans keçirilib

***İyulun 14-də Qobustanda Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Mədəni müxtəliflik tolerantlıq müstəvisində" mövzusunda konfrans keçirilib.***



Konfrans iştirakçıları əvvəlcə Qobustan İdman Kompleksində sərgilənən qədim xalq sənət nümunələri ilə tanış olub, yeniyetmə və gənc idmançıların nümunəvi çıxışlarına baxıb, yerli musiqiçilərin səsləndirdikləri xalq mahnılarına qulaq asıblar.

Gənclər Mərkəzində keçirilən konfransı Bilik Fondunun icraçı direktoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Oktay Səmədov açaraq, tarixi köklərdən qaynaqlanan tolerantlıq və multikulturalizm dəyərlərinin Azərbaycanda həyat tərzi olduğunu vurğulayıb, bu bəşəri dəyərlərin dövlətimizin istər daxili, istərsə də xarici siyasətində prioritet məsələ kimi dayandığını diqqətə çatdırıb. Natiq dövlətimizin başçısının Sərəncamı ilə 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsini ölkəmizdə məhz bu dəyərlərə verilən xüsusi diqqətin təzahürü kimi səciyyələndirib.

Konfransda DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Bilik Fondunun aparat rəhbəri İsaxan Vəliyev, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru Möhsün Nağısoy, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Nəriman Qasımzadə, Təhsil Problemləri İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsinin müdiri İntiqam Cəbrayılov və başqaları məruzələrlə çıxış ediblər.

Məruzələrdə Azərbaycanın müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşadığı diyar kimi tanındığı qeyd edilib, multikulturalizmin ölkəmizdə artıq alternativi olmayan həyat tərzinə çevrildiyi bildirilib.

Konfransda Azərbaycanda 60-dan çox millətin nümayəndəsinin yaşadığı, bununla yanaşı, dini zəmində heç vaxt münaqişənin olmadığı diqqətə çatdırılıb, bu tolerant dəyərlərin digər ölkələr üçün nümunə olduğu vurğulanıb.

Qeyd olunub ki, Azərbaycanda tarix boyu etnik və dini azlıqlar sərbəst yaşayıb, onlara öz mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün bütün şərait yaradılıb. Təsadüfi deyildir ki, bu, əsas qanunumuz olan Konstitusiyamızda da öz əksini tapıb. Ötən əsrin 90-cı illərində mədəniyyətlərin, sivilizasiyaların toqquşması kimi nəzəriyyənin meydana çıxması artıq öz təhlükəli, acı nəticəsini verməkdədir. Belə bir şəraitdə Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin apardığı multikultural siyasət bir çox dövlətlər üçün əsl nümunədir. Heç şübhə yoxdur ki, gec-tez tarixi ənənələrdən qaynaqlanan Azərbaycan multikulturalizmi dünya ölkələrinin fərqli mədəniyyətlərə baxışlarının müsbət mənada dəyişməsinə səbəb olacaq, beynəlxalq aləmdə uğurlu bir nümunə kimi tətbiq ediləcək.



# Dini radikalizmə qarşı ideoloji, iqtisadi və hüquqi mübarizə aparırıq

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədri "Amerikanın Səsi"nə müsahibə verib. Müsahibəni ixtisarla diqqətinizə çatdırırıq.**

**- Son illər Azərbaycan məhkəmələrində ittiham edilən bir çox radikal islamçılar ölkəni ədalətsizlik və sosial çətinliyə görə tərk etdiklərini bildirirlər. Sizcə, Azərbaycanda dindarların radikallaşmasına şərait yaradan əsas amillər nədir?**

- Əvvəla, sizə deyim ki, radikal dini qruplaşmalara, ekstremist qruplaşmalara qoşulanlar heç də dindar adamlar deyil. Sadəcə, bizdə belə yanlış təəssürat yaranıb ki, bu cür şəxslər guya din adamlarıdır və məhz dinlə məşğul olan adamlardır, mömin adamlardır, bunlar gedib hansısa radikal qruplara qoşulublar. Həmin məhkəmələrdə ittiham olunan və cəzalanan şəxslərlə bağlı biz araşdırma aparmışıq. Onların böyük əksəriyyəti bütövlükdə heç vaxt dinlə məşğul olmayan və dinlə bağlı bilgisi olmayan şəxslərdir. Bunların bir çoxunun, ümumiyyətlə ailəsində dinlə bağlı hansısa ənənələr belə olmamışdır. Bu şəxslərin demək olar ki, böyük əksəriyyəti maddi maraq və ya macəra axtarmaq naminə bu cür qruplaşmalara qoşulublar. Məsələn, sizə bir epizod deyim. Bir nəfərə söhbət əsnasında sual verilir, - "sən nəyə görə bu ekstremist dini qruplaşmalara qatıldın?" Deyir ki, mən getdim məscidə, orada insanları gördüm, xəbər aldım ki, Suriyaya necə gedə bilərəm? Sual verilir: "Siz məsciddə əvvəllər də gedirdinizmi?" Deyir, yox, mən Suriyaya getmək istəyirdim. Dedim ki, yəqin məsciddəkilər mənə yolu öyrədərlər. Bu adi bir epizoddur. Amma bu epizodun arxasında çoxlu sayda faktlar dayanır. Ona görə də bu cür şəxslər sosial ədalətsizlik, siyasi ədalətsizlik və bunların iddia etdikləri digər ədalətsizliklərə - bunlara mən dırnaqarası ədalətsizliklər deyərdim - görə yox, sadəcə bunların təsnifatını mən belə verərdim: Birincisi, maddi maraq naminə bu cür fəaliyyətlə pul qazanmaq istəyi, ikincisi, çox gənc yaşda olanlar macəra axtarışı və yaxud seks-cihad altında orada çoxlu xanımlarla təmas qurmaq imkanı olacağı haqqında düşünərək gedənlər var. Bir qismində isə həmin ərazilərə gedərək orada məskunlaşmaq və yaxud burada hansısa vəsaiti ələ keçirərək, sonra Azərbaycana qayıtmaq kimi düşüncə tərzi var. Bunların içərisində çox az faiz fanatik düşüncəyə məxsus olanlar, fanatizmə yuvarlananlar var. Amma əsasən dediyim kimi, maddi marağı olanlardır. Mən, məsələn, elə adamlara rast gəlmişəm ki, o əvvəl radikal qruplara qoşulub, guya İŞİD-in təbliğatını yayanlardan olub, sonra burada maddi marağı təmin olunmayanda məscidə gedib, möhürlə namaz qılıb. Bununla da demək istəyir ki, mənim üçün fərqi yoxdur. Yəni, din faktoru burada əsas deyil. Bir faktı da deyim. Ümumiyyətlə, İŞİD-in bütün kontingentini təhlil etsəniz, onların 70 faizinin dinə aidiyyəti olmayan adamlar olduğunu və beynəlxalq miqyasda quldurlar olduğunu görərsiniz.

**- Azərbaycanın dini radikallığa qarşı apardığı mübarizənin əsasını nə təşkil edir? Hətta Prezident Administrasiyasının rəhbəri bildirmişdi ki, "elə bil Azərbaycanın mövhumata qarşı kəskin tənqidi çıxış edən Mirzə Ələkbər Sabirləri, Mirzə Cəlilləri" olmayıb.**

- Dini radikalizmə qarşı mübarizənin üç istiqaməti var, - ideoloji mübarizə, iqtisadi və hüquqi müstəvidə gedən mübarizə. Bu mübarizəni biz sistemli şəkildə digər qurumlarla əlaqəli şəkildə davam etdirməkdəyik. Bütövlükdə dinin yaratdığı fəsadlar var. Dində iki fəsad var, - bir dini xurafat var, mövhumat da deyirik buna, bir də radikalizm var, yəni dinin siyasiləşməsi. Dini radikalizm və dini xurafat bir medalın iki üzüdür. Buna qarşı mübarizədə, əlbəttə Cəlil Məmmədquluzadələr də, Mirzə Ələkbər Sabirlər də, Nəriman Nərimanovlar da, - Azərbaycanın işıqlı ziyalıları zamanında olubdur. Onlar dini mövhumata və dini xurafata qarşı öz əsərləri ilə ciddi mübarizə aparıblar. Dini xurafata qarşı bu gün də Azərbaycanda mübarizə var, bu gün də Azərbaycanın ziyalıları içərisində bu cür yazılar yazanlar var, filosoflarımız var. Bu cür düşünən və dini xurafatın zərərlərini görərək onun əleyhinə təşviqat aparanlar var, mediada çıxışlar var və sairə. Dini radikalizmə qarşı mübarizədə çox böyük rol oynayan məsələlərdən biri həmin radikal dini qrupların iqtisadi bazasının çökdürülməsidir. Çünki burada iqtisadiyyat çox önəmli yer tutur. İŞİD və digər radikal qrupların iqtisadi bazası çökdürülərsə, onlar qısa zamanda aradan çıxacaqlar. Çünki iqtisadi baza, yeni şəxslərin cəlb edilməsi, satın alınması, silahların alınması və sair amillər də böyük rol oynayır. Ona görə də biz iqtisadi bazanın çökdürülməsi, ideoloji baxımdan dini radikal qrupların İslama aid olmaması, eyni zamanda hüquqi müstəvidə hüquq-mühafizə orqanları vasitəsi ilə bu cür radikal qruplara qoşulub qanunları pozanlara qarşı cinayət işlərinin qaldırılaraq Azərbaycan məhkəmələri vasitəsi ilə onların müəyyən müddətə cəzaya məruz qalması kimi addımlar atırıq.

## Seminar-treninqlər

# "Dünyəvi dövlətdə din: Azərbaycan modeli"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dini radikalizm və ekstremizmlə mübarizə çərçivəsində respublikanın bölgələri üzrə "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda seminar-treninqlər keçirməkdə davam edir. Bu qəbildən növbəti tədbirlər Lerik və Yardımlıda baş tutub.**

DQİDK-nın və Lerik Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə iyulun 11-də keçirilən tədbirdə din xadimləri, dini icma üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyev Lerikdə mövcud dini durum və bu sahədə görülmüş işlər barədə məlumat verib. Bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi strateji kurs nəticəsində Azərbaycan dünyada ən tolerant ölkə, müxtəlif dinlərin birgə fəaliyyət göstərdiyi məkan kimi tanınır.

Seminarda DQİDK sədrinin birinci müavini Səyyad Salahlının mövzu ilə bağlı məruzəsi dinlənilib. S.Salahlı bildirib ki, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyara çevrilib.



Tədbirdə Lerik şəhər "Cümə" məscidi dini icmasının sədri, Qafqaz Müsəlmanları İdarəsi sədrinin səlahiyyətli nümayəndəsi İlham Əliyev, şəhər peşə məktəbinin direktoru, tarixçi Hüseynbala Əliyev, Lüləkəran kənd məscidi dini icmasının sədri Rauf Əliyev, ağsaqqal Musa Bədəlov, rayon ağsaqqallar şurasının sədri Həmzə Vəliməmmədov da çıxış edərək həmişə dövlətçiliyə, dini və milli adət-ənənələrə sadiq qalan Lerikdə tam dini sabitliyin olduğunu vurğulayıblar.

**DQİDK və Yardımlı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə iyulun 12-də keçirilmiş tədbirdə din xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Rayon İcra Hakimiyyəti başçısının İctimai-siyasi və humanitar məsələlər üzrə müavini Əfsanə Məmmədova Yardımlıda mövcud dini durum və bu sahədə görülmüş işlər barədə ətraflı məlumat verib.**



Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı mövzu ilə bağlı məruzəsində Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin xidmətinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasının, 2016-cı ilin ölkədə "Multikulturalizm ili" elan edilməsinin respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qaldığının bariz nümunəsi olduğunu bildirib. Qeyd edib ki, son illər ölkəmizdə bu mövzuda müxtəlif beynəlxalq tədbirlərin, eyni zamanda 2016-cı ilin aprel ayında BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin təşviqi sahəsində respublikamızın fəaliyyətinə verilən ən yüksək qiymətdir.

Tədbirdə DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov, Yardımlı şəhər məscidi dini icmasının sədri Asif Ağayev, rayonun Perinbel kənd ağsaqqalı Hacı Mirhəqiqət Həsənov, şəhər 2 saylı məktəbin müəllimi Ruslan Ataşov, YAP Çayüzü kənd təşkilatının sədri Hüseyn Vəliyev, rayon ağsaqqallar şurasının sədri Heybət Mirzəyev də öz çıxışlarında Azərbaycanın dünyaya nümunə olan tolerantlıq mühitinin qorunması məqsədilə radikal elementlərin, ekstremist fikirlərin, qeyri-ənənəvi dini cərəyan və təriqətlərin yayılmasının qarşısının alınmasının daim nəzarətdə saxlanıldığını bildiriblər.

# Mübariz Qurbanlı Fransa Yəhudi icmasının nümayəndələrini qəbul edib

**İyulun 8-də Fransa yəhudi icmasının nümayəndələri, bu ölkədə fəaliyyət göstərən Valiske Assosiasiyasının rəhbəri Andre Kosmiçki, Sorbon Universitetinin professoru Arianne Bendavidi, Fransa ictimaiyyətində tanınan yəhudi əsilli ziyalılar və iş adamları Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində olublar.**

Ölkəmizdə multikultural və tolerant mühitin dərin tarixi köklərə malik olduğunu bildirən Komitə sədri Mübariz Qurbanlı yəhudi icmasının Azərbaycandakı fəaliyyətindən danışıb. Qeyd olunub ki, tolerantlıq xalqımızın həyat tərzidir, Azərbaycanda bütün dinlərin nümayəndələri əsrlərdir sülh və qardaşlıq mühitində yaşayırlar. Ötən ilin sentyabr ayında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşkilatçılığı ilə "Azərbaycan Parisin ürəyində" adlı layihə çərçivəsində Parisdə həyata keçirilən "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda keçirilmiş konfransı məmnunluq hissi ilə xatırladığını deyən M.Qurbanlı ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasında dövlət-din münasibətlərinin mühüm rol oynadığını vurğulayıb. O bildirib ki, 1995-ci ildə qəbul olunan Konstitusiyamızda Azərbaycanın dünyəvi dövlət olması prinsipi yer alıb, bu dünyəvilik isə özündə dövlət-din münasibətlərini ehtiva edir. Komitə sədri qeyd edib ki, bu gün Azərbaycanda tolerantlığın mühüm elementlərindən biri onun qorunmasının dövlət siyasətinə çevrilməsidir.

Valiske Assosiasiyasının rəhbəri Andre Kosmiçki multikultural və tolerant mühitin bütün ölkə ərazisində yüksək səviyyədə hökm sürdüyünün şahidi olduğunu, müxtəlif mədəniyyət və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında, qarşılıqlı hörmət şəraitində yaşadıqlarını deyib. O bildirib ki, Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi təsadüfi deyil.

Görüşdə Azərbaycan xalqının multikultural və tolerant dəyərləri, yəhudi icmasına göstərilən diqqət və qayğı ətrafında fikir mübadiləsi aparılıb, həmçinin Fransada yəhudi icması ilə əməkdaşlıq məsələsi müzakirə olunub.

Valiske Assosiasiyasının rəhbərinə Azərbaycandakı dini abidələrin fotoşəkillərindən ibarət kitab təqdim edilib.

Görüşdə Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Dövlət Komitəsi sədrinin müavinləri və şöbə müdirləri iştirak ediblər.



# Dövlət Komitəsi yeni qeydiyyatdan keçmiş 36 dini icmaya şəhadətnamələr təqdim edib



İyulun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan yeni keçmiş 36 dini icmaya şəhadətnamələr verilib.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək ölkədəki dini durum barədə ətraflı məlumat verib. Bildirib ki, bu gün Azərbaycan tolerantlığı, multikultural ənənələrə sadiqliyi ilə bütün dünyada örnək göstərilən ölkələrdəndir və bu uğurun baş memarı Ulu Öndər Heydər Əliyevdir. Məhz onun Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də sürətli inkişafa nail olundu, dövlətçiliyimizə, milli-mənəvi dəyərlərimizə, dinimizə uyğun qaydalar müəyyənləşdirildi. Ümummilli Liderin "Biz dini, ilk növbədə, mədəniyyətimizin, tarixi irsimizin, mentalitetimizin bir fenomeni və ayrılmaz hissəsi kimi qəbul edirik. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir" sözlərini xatırladan S.Salahlı dinə, dindarlara münasibəti əks etdirən bu tezisin hazırda Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini vurğulayıb. Bildirib ki, dövlət başçısının sərəncamları, tapşırıq və tövsiyələri ilə ölkəmizdə bir sıra məscidlər tikilib, təmir və bərpa olunub, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərilir və bu, dini zəmində münaqişələr girdabında boğulan müasir dünyamızda nadir rast gəlinən nümunədir.

Komitə sədrinin birinci müavini təəssüflə bildirib ki, dövlətin yüksək diqqət və qayğısının müqabilində bir sıra hallarda din xadimləri radikalizmlə mübarizə işində fəal iştirak etmirlər: "Bəzi qruplar öz şəxsi mənafeləri naminə, hətta cəmiyyətin gələcəyini təhlükə altına salaraq, insanları radikalizmə sürükləyən fəaliyyətə can atırlar. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, o cümlədən dövlətin digər müvafiq qurumları bu qruplara qarşı mübarizə aparmaqdadır, ancaq çox istərdik ki, dindarlarımızın, nüfuzlu din xadimlərimizin bu istiqamətdə fəaliyyəti, radikalizmə qarşı seçdikləri taktika daha güclü və daha effektli olsun. Bunun üçün, ilk növbədə, özünü və daha sonra digər insanları xurafatdan, mövhumatdan uzaq, saf dini biliklərlə maarifləndirmək mütləqdir".

Sonra qeydiyyat şəhadətnamələri almış dini icmaların sədrləri çıxış edərək dinə, dindarlara diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, rəhbərlik etdikləri dini icmalar gələcək fəaliyyətlərində dövlətçilik prinsipini əsas tutacaq və xalqımızın milli-mənəvi dəyərlərinə yad olan dini ideologiyaların ölkəmizə ayaq açmasının qarşısının alınmasında daha fəal iştirak edəcəklər.

# "Dini ekstremizmə qarşı mübarizə" mövzusunda seminar-müşavirə keçirilib

***İyulun 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yasamal Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini ekstremizmə qarşı mübarizə" mövzusunda seminar-müşavirə keçirilib.***



Baş Prokurorluq, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin Yasamal, Nəsimi və Nərimanov rayonlarının yerli strukturlarının nümayəndələri, ziyalılar, dindarlar və ictimai fəallar iştirak etdikləri tədbiri giriş sözü ilə açan Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev bu cür tədbirlərin keçirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov Azərbaycandakı multikultural mühitin bütün dünya üçün örnək olduğunu bildirib. O vurğulayıb ki, tolerantlıq milli mənsubiyyətindən, dinindən asılı olmayaraq, hər bir azərbaycanlının həyat tərzinə çevrilib. Sədr müavini bəzi Şərq ölkələrində baş verən münaqişələrə diqqəti çəkərək təəssüflə bildirib ki, bəzi qüvvələr tərəfindən din amilindən geosiyasi maraqlar üçün istifadə edilir.

Dövlət Komitəsinin sifarişi ilə hazırlanan "Fitnə" sənədli filmi barədə də məlumat verən S.Heydərov bildirib ki, bu film dini radikalizmlə mübarizə çərçivəsində radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəflərini özündə əks etdirir. Onun sözlərinə görə, filmdə dini radikalizmin qurbanı olmuş insanların və cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin timsalında bu problemin cəmiyyətimiz, eləcə də dövlətimiz üçün nə qədər təhlükəli olduğu dolğun şəkildə açıqlanır.

Daha sonra çıxış edən Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Hikmət Eyvazov son illərdə respublikamızda keçirilən tədbirlərdə ayrı-ayrı xalqların nümayəndələrinin iştirakını tolerantlıq nümunəsi kimi dəyərləndirib. O, ölkəmizdə dini etiqad və vicdan azadlığının təmin olunduğunu diqqətə çatdırıb və qeyd edib ki, Azərbaycanda bütün dinlərin və millətlərin nümayəndələri vahid ailə kimi əmin-amanlıq və sabitlik şəraitində yaşamaqdadırlar.

Baş Prokurorluğun idarə rəisinin müavini Novruz Hacıyev dini radikalizm və onun fəsadlarından, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı pozuculuq fəaliyyətlərinin qarşısının alınması istiqamətində görülən işlərdən danışaraq qeyd edib ki, vətəndaşlarımızı, xüsusilə də gənclərimizi dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorumaq məsuliyyəti cəmiyyətin üzərinə düşür. Bu mənada dini maarifçilik işinin düzgün metodlarla təşkilinə, gücləndirilməsinə və əhatə dairəsinin genişləndirilməsinə xüsusi diqqət yetirilməlidir.

Yeni Azərbaycan Partiyası Yasamal Rayon Təşkilatının sədri Tağı Əhmədov da dövlətin gənclərə diqqət və qayğısından danışıb.

Qeyd edək ki, müşavirədən öncə "Fitnə" filmi Yasamal rayon ictimaiyyətinə təqdim olunub.

BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# Şamaxı



Şamaxı bölgəsi üzrə şöbə 2015-ci ilin aprel ayında Şimal-qərb və Şirvan bölgələri üzrə şöbələrin əsasında yaradılmışdır. Şöbənin dislokasiyasına Şamaxı, Qobustan, Ağsu və İsmayıllı rayonları daxildir. Əfzələddin Xaqaninin, İmadəddin Nəsiminin, M.Ə.Sabirin, S.Ə.Şirvaninin yurdu – Şamaxı şəhərinin də daxil olduğu bölgə qədim mədəniyyət mərkəzlərindən biri olaraq zəngin və çoxəsrlik mədəniyyəti ilə ölkəmizin iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Bölgə həm etnik, həm də dini cəhətdən rəngarəng və zəngin ərazilərdəndir. Təsadüfi deyil ki, 743-cü ildə inşa olunmuş Cənubi Qafqazın ən qədim məscid kompleksi olan Şamaxı Cümə məscidi bölgənin ictimai-siyasi və dini həyatında mühüm əhəmiyyətə malikdir. Heydər Əliyev Fondu tərəfindən bərpası təşəbbüsü irəli sürülmüş Şamaxı Cümə Məscidində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 dekabr 2009 il tarixli Sərəncamına əsasən genişhəcmli və əsaslı təmir işlərinə başlanılmışdır. Demək olar ki, Azərbaycan tarixinin bu nadir incisinə ikinci həyat verilmişdir. Bərpa və yenidənqurma işlərinin yüksək keyfiyyətlə, Azərbaycanın çoxəsrlik milli-memarlıq irsi ənənələrinə uyğun şəkildə yerinə yetirilməsi bütün dövrlərdə əhali arasında müqəddəs ibadət yeri kimi tanınan və yüksək ehtiram göstərilən memarlıq üslubu, qədimliyi və orijinallığı ilə seçilən Şamaxı Cümə Məscidinin yenidən dirçəlməsinə imkan vermişdir. 17 may 2013-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə əsaslı bərpa edilən və yenidən qurulan Şamaxı Cümə Məscidinin açılışı olmuşdur.

Bölgədə Azərbaycan türkləri ilə yanaşı, axıska türkləri, ləzgi, rus, tat, hapıt və s. xalqların nümayəndələri mehriban qonşuluq və dostluq şəraitində yaşayır. Yerli əhalinin böyük əksəriyyətini müsəlmanlar təşkil etməsinə baxmayaraq, bölgədəki xristian dininin mənsubları da öz ibadətlərini azad və sərbəst şəkildə həyata keçirirlər. Təqribən 307 min nəfər əhalinin yaşadığı və 105 məscid, 4 kilsə, 8 ibadət evi, 158 pir və ziyarətgahın mövcud olduğu bölgədə fəaliyyət göstərən 70 dini icmadan 48-i Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) dövlət qeydiyyatından keçmişdir. Digər icmaların da dövlət qeydiyyatından keçmələri və qanuna uyğun fəaliyyət göstərmələri istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Şamaxı bölgəsi üzrə şöbə fəaliyyətini "Dini etiqad azadlığı haqqında" Qanuna, Dövlət Komitəsinin Əsasnaməsinə, Dövlət Komitəsi Sədrinin əmr və sərəncamlarına, digər normativ hüquqi aktlara və İş Planına uyğun olaraq günün tələbləri səviyyəsində qurmağa çalışmışdır. Şöbə əsas funksiyasından irəli gələn vəzifə kimi bölgədə dini durumu dərindən öyrənmək, dini prosesləri izləmək, dini vəziyyətlə bağlı informasiya fondunu genişləndirmək, dini qurumlarla əməkdaşlığın qurulmasını təmin etmək, dini maarifləndirmə işi aparmaq, daxil olan müraciətlərə baxmaq istiqamətində müvafiq tədbirlər həyata keçirmişdir. Şamaxı bölgəsi üzrə şöbə yerli icra hakimiyyətləri, hüquq-mühafizə orqanları, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndələri, təhsil şöbələri, Gənclər və İdman idarələri və digər əlaqədar təşkilatlarla əməkdaşlıq edir, dini radikalizm və onun fəsadları, milli-mənəvi və dini dəyərlər, tolerantlıq, zərərli vərdişlər və narkomaniyanın cəmiyyətdə mənfi təzahürləri, erkən nikah və s. mövzularda çoxsaylı tədbirlər həyata keçirmişdir.

⇨ 12

# "Dini ekstremizm və onun fəsadları" mövzusunda tədbir keçirilib



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Penitensiar Xidmətin birgə təşkilatçılığı ilə 1 saylı cəzaçəkmə müəssisəsində "Dini radikalizm və onun fəsadları" mövzusunda tədbir keçirilib.**

Tədbirdə Penitensiar xidmətin Tərbiyə işinin təşkili idarəsinin rəisi Rafiq Ramazanov, DQİDK-nın sədr müavini Səyavuş Heydərov və Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Rafiq Ramazanov Dövlət Komitəsi ilə Penitensiar Xidmət arasında əməkdaşlığın xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Azərbaycanda hökm sürən tolerant və multikultural mühiti tədbir iştirakçılarının diqqətinə çatdıran R.Ramazanov cəzaçəkmə müəssisələrində məhkumların dini etiqad azadlığının tam təmin olunması və bu istiqamətdə görülən işlər barədə məlumat verib.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Azərbaycanda milli-mənəvi dəyərlərə verilən önəmdən və dinimizə dövlət səviyyəsində olan qayğıdan söz açıb. Ölkəmizdə bu ilin Prezident İlham Əliyev tərəfindən "Multukulturalizm ili" elan olunmasını və onun mahiyyətini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Sədr müavini təəssüflə bir çox müsəlman ölkələrində din pərdəsi altında baş verən hadisələrin fəsadlarına da diqqət çəkib. Ölkəmizdə hökm sürən tolerant, multikultural mühiti pozmağa çalışan bəzi neqativ, yad ideologiyaların təsirlərinə məruz qalmış şəxslərin cəhdlərindən danışaraq, hazırda milli təhlükəsizliyimizi təhdid edən ən başlıca problemin məhz dini ekstremizm olduğunu vurğulayıb.

Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov dini ekstremizmin tarixi kökləri, onun yaranma səbəbləri və müasir durumu ilə bağlı çıxış edib. Dindən öz məqsədləri üçün istifadə edən qüvvələrin hansı metodlara əl atdığını sadalayaraq, onların insanları inandırmaq üçün Quran ayələrinin əksəriyyətini kontekstdən çıxararaq izah etdiyini bildirib. Halbuki bu ayələrin mənaları və nazil olma səbəbləri tamamilə başqadır, hətta bəzi hallarda iddia edilənin tam əks mənasına gəlir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb və Dövlət Komitəsinin nəşrləri olan müxtəlif ədəbiyyatlar hədiyyə edilib.

# Dini maarifləndirmə layihəsi çərçivəsində



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən bölgələrdə növbəti tədbirlər baş tutub. Bu qəbildən maarifləndirici tədbirlər Ağcabədi rayon "Seyid Mürsəl Ağa" məscidi, Quba rayonu Təngəaltı kəndi "Seyidlər" məscidi dini icmaları tərəfindən həyata keçirilib.

"İslamda ailə dəyərləri", "Milli-mənəvi dəyərlərimizin təbliği və dini radikalizmlə mübarizə" mövzularda təşkil olunan tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları, dini icma üzvləri, dindarlar, ağsaqqallar, ziyalılar və gənclər iştirak ediblər.

Çıxışlarda Azərbaycanın dövlət-din münasibətləri modeli, mövcud dini durum, dini radikalizm və ekstremizmlə mübarizə metodları, İslamda ailə dəyərlərinin önəmi, ölkəmizdə tarixən formalaşmış tolerantlıq və multikulturalizm ənənəsi barədə geniş məruzələr dinlənilib.

Dini maarifləndirmə sahəsində görülən işlərin əhəmiyyətinin vurğulandığı tədbirlərdə bildirilib ki, layihələr çərçivəsində sağlam dini biliklərə söykənən silsilə maarifləndirmə tədbirləri həyata keçirilir. Müasir dünyada dini-etnik zəmində baş verən münaqişələrin fonunda milli-mənəvi dəyərlərimizin təbliğinin vacibliyi önə çəkildiyi tədbirdə dövlət başçısının dini icmalara milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı maliyyə yardımının ayrılması barədə Sərəncamı tədbir iştirakçıları tərəfindən yüksək qiymətləndirilib. Həmçinin Prezident cənab İlham Əliyevin Azərbaycanda 2016-cı ili "Multikulturalizm ili" elan etməsinin dindarlar tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandığı qeyd olunub. Bildirilib ki, xalqımızın zəngin multikultural və onun tərkib hissəsi olan tolerantlıq ənənələrinin qorunub daha da inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmizdə müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələri sülh və əmin-amanlıq şəraitində, heç bir ayrı-seçkiliyə məruz qalmadan mehriban yaşaması bu ənənənin tarixi keçmişimizdən, mental dəyərlərimizdən qaynaqlanır. Bu gün Azərbaycanda mövcudiyyətini qoruyub saxlayan dini tolerantlıq və multikultural dəyərlərin inkişafında dini icmalar və dindarlar aktiv fəaliyyət göstərməlidirlər.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR



# Şamaxı

⇐11 Şöbə narkomaniyaya qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi Dövlət Proqramına uyğun olaraq gəncləri zərərli vərdişlərdən çəkindirmək, bu məqsədlə təşkil edilən tədbirlərə ictimaiyyət nümayəndələrini, dini icmaları və din xadimlərini cəlb etmək məqsədilə silsilə tədbirlər təşkil etmişdir.

Bu məqsədlə Şamaxı rayon İncəsənət Təhsil Mərkəzində rayonun orta ümumtəhsil, orta ixtisas və ali məktəblərinin pedaqoji kollektivləri, şagird və tələbələrin iştirakı, Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupu və Şamaxı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə bir sıra tədbirlər keçirilmişdir.

Eyni zamanda, dini radikalizmə qarşı mübarizə sahəsində 2016-cı il mart ayının 9-da DQİDK-nın təşəbbüsü, Qobustan Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizə sahəsində dini icmaların fəaliyyətinin təşkili" mövzusunda keçirilən tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov, QMİ-nin səlahiyyətli nümayəndəsi Mərəhmət Mustafayev, hüquq-mühafizə orqanlarının rəhbərləri, ziyalılar, dini icma sədrləri, imam və axundlar iştirak ediblər. Həmin gün Şamaxı rayonunun Adnalı kənd məscidində DQİDK sədrinin birinci müavini Səyyad Salahlının Şamaxı Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Qasım Qasımovun, eyni zamanda hüquq-mühafizə orqanlarının rəhbərlərinin iştirakı ilə tədbir keçirilmişdir. Tədbirdə dövlət-din münasibətləri, radikalizm və onunla mübarizədə dindarların vəzifələri barədə çıxışlar olmuşdur. Əlavə olaraq 2016-cı ilin may ayının 24-də Şamaxı Rayon İcra Hakimiyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Dini ekstremizmə qarşı mübarizə" mövzusunda seminar-müşavirə keçirilib. Tədbirdə Baş Prokurorluq, Daxili İşlər və Ədliyyə nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı, İsmayıllı, Ağsu və Göyçay rayonlarının yerli strukturlarının nümayəndələri iştirak ediblər.

Şöbə əməkdaşlarının iştirakı ilə Şamaxı rayon polis şöbəsi, rayon Prokurorluğu və təhsil şöbələri ilə birlikdə Şamaxı rayon Humanitar Kollecində, orta ümumtəhsil məktəblərində dini radikalizmlə mübarizədə gənclərin rolu, xüsusilə gənclərin radikal təsirlərdən qorunması mövzusunda maarifləndirici tədbirlər təşkil olunmuşdur. Əlavə olaraq şöbə tərəfindən Şamaxı, İsmayıllı, Ağsu rayonlarında "İnsan Hüquqları aylığı", "Sülh aylığı", "Uşaq aylığı" çərçivələrində maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Şöbə dindarlar arasında vətənpərvərlik və dövlətçilik ruhunun gücləndirilməsinə nail olmaq məqsədilə müvafiq tədbirlərin görülməsi ilə bağlı işləri davam etdirmişdir. Vətənimizin tarixində dərin izlər buraxan 20 Yanvar faciəsinin 26-cı ildönümü, 26 Fevral Xocalı Faciəsinin 24-cü ildönümü və 31 Mart Soyqırımı gününün 98-ci ildönümü günlərində Şamaxı bölgəsi üzrə şöbənin təşəbbüsü ilə dini icmalar anım mərasimlərində aktiv iştirak etmiş, bölgələrdəki şəhidlər xiyabanları və şəhid ailələri ziyarət olunmuşdur.

Güclü dövləti şərtləndirən amillərdən birinin güclü vətəndaş cəmiyyəti olduğunu nəzərə alaraq dövlətimiz tərəfindən bu sahənin inkişafına xüsusi diqqət ayrılmış, vətəndaş cəmiyyətinin qurulması istiqamətində bir çox nailiyyətlər əldə olunmuşdur. Odur ki, DQİDK və onun bölgə şöbələri respublikamızda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa xüsusi önəm verir. Belə ki, Şamaxı bölgəsi üzrə şöbə "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin "Gənclər arasında azərbaycançılığın təbliğində dini maarifçiliyin rolu", "Din və Demokratiya Mərkəzi" İctimai Birliyinin "Azərbaycan dövlətçiliyinin təbliği ilə bağlı maarifçilik tədbirlərinin təşkili", "Yeni Üfüq mənəvi irsin təbliği" ictimai birliyinin "Milli-mənəvi dəyərlərimiz və müasir çağırışlar" adlı layihələrinin təşkilində və həyata keçirilməsində yaxından iştirak etmişdir.

Məlum olduğu kimi, Ramazan və Qurban bayramları müsəlman dünyasında xüsusi əhəmiyyətə malikdir. Digər aylardan fərqli olaraq, müqəddəs aylarda, xüsusilə Ramazan ayında məscidə gələnlərin sayı daha çox olur. Odur ki, şöbə əməkdaşları ibadət ayinləri icra olunan məscidlərdə monitorinq aparmaq məqsədilə mütəmadi iştirak etmişlər. 2015-ci il 10 iyul tarixində Şamaxı şəhərində Dövlət Komitəsinin və Şamaxı Rayon İcra Hakimiyyətinin dəstəyi ilə iftar süfrəsi təşkil edilmişdir. Tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, o cümlədən Şamaxı "Cümə" məscidi dini icmasının üzvləri, dini icma sədrləri, imam və axundlar, rayon ağsaqqalları, ziyalılar iştirak etmişdir. İsmayıllı şəhər "Cümə" məscidi dini icmasının, eyni zamanda İsmayıllı rayon Diyallı kənd məscidi dini icmasının sosial maarifləndirmə tədbirləri çərçivəsində təşkil etdiyi iftar süfrələrində DQİDK sədrinin birinci müavini Səyyad Salahlının və İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqovun şəxsən iştirakı dini icma üzvləri, xüsusilə rayon dindarları arasında xüsusi rəğbətlə qarşılanmışdır. Qurban bayramı münasibətilə Şamaxı, Qobustan, Ağsu və İsmayıllı rayonlarında qurbanlar kəsilərək, xüsusilə şəhid ailələrinə, Qarabağ əlillərinə, müharibə veteranlarına və ehtiyacı olan yoxsullara paylanmışdır.

Bütün bunlarla yanaşı, bölgəmizdə əlamətdar dini bayram və mərasimlər özünəməxsus şəkildə qeyd olunmuşdur. Məhəmməd peyğəmbərin (s) mövludu, Rəqaib, Merac və Bəraət gecələri bir qayda olaraq Şamaxı, İsmayıllı, Ağsu və Qobustan rayonlarının mərkəzi məscidlərində qeyd olunmuşdur. Aparılan monitorinqlər deməyə əsas verir ki, bu mahiyyətdə həyata keçirilən tədbirlər ənənəvi dini dəyərlərin inkişafına, gənclərimizin milli-mənəvi dəyərlər işığında tərbiyəsinə xüsusi təkan verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama əsasən, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımının ayrılması dini icmaların fəaliyyətinə işıq tutmuş, dini həyatda yeni mərhələyə zəmin yaratmışdır. Ümumiyyətlə, Şamaxı bölgəsində 5 dini icmaya maliyyə vəsaiti ayrılmışdır. İsmayıllı şəhər "Cümə" məscidi "Gənclərimizin sağlam dini maariflənməsi", İsmayıllı rayonu Diyallı kənd məscidi "İnsanların əxlaq və sevgi yönümündə dini maariflənməsi" , İsmayıllı rayonu Talıstan kənd "Bilal" məscidi "İslam zərərli vərdişlərə yox deyir!", Şamaxı şəhər "Cümə" məscidi dini mərkəz dini icmasının "Milli-mənəvi dəyərlərin təbliğində gənclərin rolu", Ağsu şəhər "Nuran Xatun" məscidi dini icmasının "Dindarların radikal təsirlərdən qorunması" layihələri uğurla həyata keçirilib. Şöbə tərəfindən dini icmaların maarifləndirilməsi sahəsində, xüsusilə radikalizmlə mübarizə, dövlətçilik və vətənpərvərlik hisslərinin aşılanması istiqamətində Dövlət Komitəsinin bilavasitə nəşr etdiyi və ya dəstəklədiyi radikal dini cərəyanlara qarşı mübarizə vasitəsi kimi məscidlərə müxtəlif adda dini ədəbiyyatlar paylanılmışdır. Dini maarifləndirmə sahəsində görülən işlər nəticəsində bölgə ictimaiyyəti, xüsusilə gənclər və dindarlar zərərli cərəyanlar, tolerantlıq, ənənəvi İslam, dövlət-din münasibətləri və s. mövzular barədə ətraflı məlumat əldə etmişlər.



Qeyd etdiyimiz kimi, bölgəmiz etnik cəhətdən rəngarəngliyi ilə yanaşı, dini cəhətdən də zəngin bölgələrdəndir. Belə ki, burada İslam təmayüllü dini icmalarla yanaşı Şamaxı rayonu Çuxuryurd, Qızmeydan, Nağaraxana kəndlərində, İsmayıllı rayonu İvanovka kəndində və Qobustan rayonu Hilmilli kəndində molokanlar yaşayır. Bunlardan İsmayıllı rayonu İvanovka kənd "Molokan ruhani xristian" və Qobustan rayonu Hilmilli kənd "Molokan ruhani xristian" dini icmaları dövlət qeydiyyatından keçmişdir. Dövlətimiz tərəfindən dini icmalara göstərilən diqqət və qayğıdan qeyri-islam təmayüllü dini icmalar da öz nəsiblərini alır və hər zaman diqqət və qayğını hiss edirlər. Xüsusilə onların əlamətdar dini bayram və mərasimlərini, habelə ibadətlərini həyata keçirmələri üçün istər Dövlət Komitəsi, istərsə də yerli icra hakimiyyəti orqanları tərəfindən şərait yaradılır.

2016-cı ilin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Multikulturalizm ili" elan olunması ilə əlaqədar ölkəmizdə tolerantlıq ənənələrini, millətlər, mədəniyyətlər və sivilizasiyalararası münasibətlərə verdiyi dəyərləri üzə çıxarmaq və təbliğ etmək baxımından olduqca mühüm işlər həyata keçirilməkdədir. Məhz buna görə də Dövlət Komitəsi rəhbərliyi tərəfindən şöbəmizin qarşısına mühüm vəzifələr qoyulmuşdur. 2016-cı ilin mart ayının 17-də İsmayıllı rayonunda Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu və İsmayıllı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dövlət din münasibətləri, tolerantlıq və multikulturalizm Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindədir" mövzusunda elmi konfrans keçirilmişdir. Heydər Əliyev Mərkəzində öz işinə başlayan konfransda ölkə başçısının tolerantlıq və multikulturalizm sahəsində gördüyü dünya əhəmiyyətli işlər barədə məlumat verilmiş, dini dözümlülüyün, tolerantlığın, multikulturalizmin dövlət siyasətinin başlıca istiqamətlərindən olduğu diqqətə çatdırılmışdır. Eyni zamanda, 2016-cı ilin may ayının 12-də İsmayıllı rayonunda Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və İsmayıllı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanda multikulturalizm gənclərin gözü ilə" mövzusunda konfrans keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri cənab Mübariz Qurbanlının bölgəyə səfəri, o cümlədən "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda təşkil olunan regional konfransda çıxışı, dindarlar, ziyalılar və ağsaqqallarla görüşü dövlət-din münasibətlərinin inkişafı baxımından işimizə öz töhfəsini vermişdir.

Görülən işlər bölgə əhalisinin dini radikalizm, qeyri-ənənəvi dini cərəyanlar, mövhumatçılıq, ənənəvi İslam kimi aktual mövzularda daha dəqiq məlumatlar əldə etməsinə şərait yaratsa da, bölgəmizdə milli-mənəvi və dini dəyərlərə söykənən, milli kimliyimizə əsaslanan sağlam dini mühitin yaradılması istiqamətində görüləcək işlər çoxdur. Odur ki, Şamaxı bölgəsi üzrə şöbə gələcəkdə bu sahədə daha qətiyyətlə çalışacaq, var gücü ilə fəaliyyətini davam etdirəcəkdir.

***Rəhim RƏHİMLİ,***
***DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri***

# Qısa-qısa



İyulun 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Ucar bölgəsi üzrə şöbəsinin və Ucar rayon Mədəniyyət Evinin birgə təşkilatçılığı ilə ra-yonun Mərkəzi Kitabxanasında "İşğal altındakı tarixi-dini abidələrimiz və erməni vandalizmi" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev, şöbənin əməkdaşı Rauf Nəsirov, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Ucar rayonu üzrə nümayəndəsi Hakim Nəcəfov, kitabxana və muzey işçiləri, dini icma sədrləri iştirak ediblər.

Tədbirdə tək azərbaycanlılar üçün deyil, bütün bəşəriyyət üçün mühüm əhəmiyyət daşıyan çoxsaylı tarixi, dini, mədəni və arxeoloji abidələrimizin işğal edilmiş ərazilərimizdə qaldığı və dövlət qurumları, fondlar tərəfindən həmin abidələr haqqında dünya ictimaiyyətinə məlumat verildiyi bildirilib. Həmçinin bu ilin aprel ayının əvvəllərində Ermənistan silahlı qüvvələrinin törətdikləri təxribat nəticəsində cəbhədə baş vermiş döyüşlər zamanı Azərbaycanın bir sıra tarixi-dini abidələrinin atəşə tutularaq dağıdıldığı və bununla əlaqədar DQİDK sədrinin adından ATƏT-in Minsk Qrupunun həmsədrlərinə etiraz məktubu göndərildiyi, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyalar tərəfindən dünya ictimaiyyətinə müraciətlərin ünvanlandığı diqqətə çatdırılıb.

* * *

İyulun 1-də DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşəbbüsü ilə Xaçmaz rayonu Köhnə Xudat kənd məscidində "Dini radikalizm və onun təzahür formaları" mövzusunda tədbir keçirilib. Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Xaçmaz rayonu üzrə səlahiyyətli nümayəndəsi Məzahir Yəhyayev, dindarlar, ağsaqqallar və gənclər iştirak etdiyi tədbirdə müasir dövrdə dini radikalizmin dünya miqyasında narahatlıq doğuran problemlərdən biri olduğu bildirilib və təvazökar, sülhpərvər, Vətənini, xalqını sevən hər bir dindar və gənc radikalizmdən uzaq durmağa çağırılıb.

* * *

İyulun 1-də Yeni Azərbaycan Partiyasının Ağstafa rayon təşkilatının akt zalında "Dövlət-din münasibətləri" mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Ağstafa Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Əziz Məsmalıyev bildirib ki, rayon icra hakimiyyəti başçısının Sərəncamı ilə "Ağstafa rayonunda dini qurumlarla işin aparılmasının təkmilləşdirilməsi barədə" Tədbirlər Planı təsdiq olunub. Sərəncama uyğun olaraq, rayonda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini icmalarla işin qanunvericiliyə uyğun təşkili, dini ibadət və mərasimlərin milli-mənəvi dəyərlərimizə və dövlətçilik prinsiplərinə uyğun keçirilməsi istiqamətində tədbirlərin icrasına başlanılıb.

Tədbirin sonunda Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Fitnə" filmi nümayiş etdirilib.

* * *

İyulun 3-də DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşəbbüsü və Quba rayonu Alpan kənd məscidi dini icmasının təşkilatçılığı ilə adı çəkilən kənddə "Dini radikalizmlə mübarizədə mötədil dindarların rolu" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə Quba bölgəsi üzrə şöbənin müdir müavini Ramin Xudayev, şöbənin əməkdaşı Elnur Ağasiyev, QMİ-nin Quba bölgəsi üzrə qazısı Hacı Naib Səttarov, Quba RİH-nin Alpan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi, kənd dini icmasının sədri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dini radikalizmlə mübarizədə dövlətimizin əldə etdiyi uğurlardan bəhs olunan tədbirdə bu işdə keçirilən müasir maarifləndirmə tədbirlərinin müsbət təsirinin olduğu və bu gün ölkəmizdə gənclər və yeniyetmələr arasında dini radikalizmə meyillənmə hallarının azaldığı vurğulanıb.

* * *

İyulun 5-də DQİDK və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Şəkidə "Multikultural cəmiyyətdə dini ekstremizmlə mübarizədə gənclərin rolu" mövzusunda konfrans keçirilib. Tədbirdə Gənclər və İdman Nazirliyinin və DQİDK-nın rəsmiləri, adları çəkilən qurumların yerli strukturlarının təmsilçiləri, Şəhər İcra Hakimiyyətinin məsul şəxsləri, gənclər iştirak ediblər.

Konfransda gənclərin radikal dini cərəyanların təsiri altına düşməməsi və bu istiqamətdə məlumatlandırılmanın təmin edilməsi, həmçinin gənclər arasında milli-mənəvi dəyərlərin təbliği məqsədilə maarifləndirici tədbirlərin keçirilməsinə böyük ehtiyac olduğu məsələlərinə toxunulub. Həmçinin ölkədə mövcud dövlət-din münasibətlərindən, xalqımızın zəngin tolerantlıq ənənəsindən, müstəqilliyimizin bərpasından sonra milli-mənəvi dəyərlərimizə qayıdış prosesinin özünəməxsusluğundan danışılıb. Sonda Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış və dini ekstremizmin yaranma səbəblərinə və fəsadlarına həsr olunmuş "Fitnə" filminin nümayişi olub.



* * *

İyulun 11-də DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Digah kəndində "Multikultural dəyərlər işığında radikalizmlə mübarizə yolları" mövzusunda tədbir keçirilib. Tədbirdə Quba bölgəsi üzrə şöbənin müdiri Eynulla Nurullayev, Quba Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər üzrə şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov, Quba RİH başçısının Xucbala kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Pənah İbrahimov və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbirdə bütün dünyada dini dözümsüzlüyün baş alıb getdiyi dövrdə Azərbaycanda mövcud olan tolerantlığın bütün dünyaya nümunə olduğu qeyd edilərək ölkəmizdə hər kəsin dini etiqad azadlığının və milli-mənəvi dəyərlərinin qorunduğu bildirilib.

* * *

İyulun 12-də DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Laçın Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Taxtakörpü qəsəbəsində "Multikulturalizmin Azərbaycan modeli" mövzusunda tədbir keçirilib.

Tədbirdə Laçın Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Cabir Əvəzzadə, Laçın rayon Təhsil şöbəsinin baş məsləhətçisi Şamo Qasımov, Laçın rayon Qarakeçdi kəndinin icra nümayəndəsi Əli Həsənquliyev, Ağcabədi bölgəsi üzrə şöbənin müdiri Əlizadə Nəcəfov, şöbənin əməkdaşı Cavid Məlikzadə və ictimaiyyət nümayəndələri iştirak ediblər.

* * *

İyulun 19-da DQİDK və Pirallahı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Pirallahı rayonu Vaqif Mustafazadə adına Mədəniyyət Mərkəzində "Tolerantlıq-dini müxtəlifliklə birgəyaşayışdır" mövzusunda tədbir keçirilib.

Tədbirdə Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin aparıcı məsləhətçisi Nurlan Əzizov, Pirallahı Rayon İcra Hakimiyyəti başçısının müavini Vəzir Səfixanov, Dövlət Təhlükəsizlik Xidmətinin Pirallahı rayon İdarəsinin rəisi Razi Qədirov, Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Vüsal Babayev, rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların kollektivlərinin üzvləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunduğu qeyd edilərək, əsrlər boyu müxtəlif millətlərin və dinlərin nümayəndələrinin Azərbaycanda sülh şəraitində, azadlıq, dostluq mühitində yaşadığı vurğulanıb. Natiqlər həmçinin ölkədəki dini durum, dini icmaların fəaliyyəti, dövlətin dinə qayğısı, o cümlədən tolerantlıq siyasətinin formalaşmasında Ulu Öndər Heydər Əliyevin titanik fəaliyyətindən və Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin bu sahədəki mühüm xidmətlərindən bəhs ediblər.

* * *

İyulun 26-da DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Quba rayonu Amsar kəndində "Multikulturalizm, tolerantlıq və dini radikalizmlə mübarizə yolları" mövzusunda tədbir keçirilib.

Tədbirdə Quba bölgəsi üzrə şöbənin müdiri Eynulla Nurullayev, Quba Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov, Quba RİH başçısının Amsar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Elvin Hüseynov, Quba Rayon Polis Şöbəsinin Amsar inzibati ərazi dairəsi üzrə sahə müvəkkili, polis kapitanı Adıgözəl Adıgözəlov və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Natiqlər öz çıxışlarında Azərbaycanda mövcud olan multikultural mühitdən, müxtəlif xalqların və etnosların sülh və bərabərlik şəraitində yaşamasından danışıblar. Qeyd olunub ki, Quba rayonu da bu cəhətdən zəngin bölgədir, burada 20-dən çox xalq yaşayır. Bildirilib ki, Azərbaycanda hökm sürən tolerant mühiti pozmağa can atan qüvvələr xalqın birliyi qarşısında geri çəkilməyə məcbur olurlar.

Sonda tədbir iştirakçılarına Dövlət Komitəsinin dəstəyi ilə çap olunan maarifləndirici ədəbiyyat hədiyyə edilib.



# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**İmişli rayonu Otuziki kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-650
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu, Otuziki kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Şamo Kərim oğlu Cahangirov

**Göyçay rayonu Ləkçıplaq kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-651
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Göyçay rayonu, Ləkçıplaq kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Elxan Tərlan oğlu Beydullayev

**Lənkəran rayonu Velədi kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-652
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu, Velədi kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ramin Əliəkrəm oğlu Mehrəliyev

**İmişli rayonu Xoşçobanlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-653
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu Xoşçobanlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Bayram Teyyub oğlu Nuruşov

**Lənkəran rayonu Boladi kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-654
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu, Boladi kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ələkbər İzzət oğlu Məmmədov

**Lerik rayonu Veri kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-655
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lerik rayonu, Veri kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Rizvan Mirhətəm oğlu Zeynalov

**Sabirabad rayonu Ulacalı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-656
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Sabirabad rayonu, Ulacalı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mirmövsüm Mirmusa oğlu Mirhüseynov

**Salyan rayonu Xurşud kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-657
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Xurşud kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əli İsmayıl oğlu Beybudov

**Abşeron rayonu Qobu qəsəbəsi "İmam Hüseyn Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-658
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Abşeron rayonu, Qobu qəsəbəsi, Səməd Ağamalıoğlu küçəsi 2, "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Şahmar Müzəffər oğlu Zahidov

**Sabirabad rayonu Cavad kəndi "Əbəlfəzl" məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-659
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Sabirabad rayonu, Cavad kəndi, "Əbəlfəzl" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əlivan Süleyman oğlu Nuriyev

**Salyan şəhəri "İmam Hüseyn" məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-660
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan şəhəri, 20 Yanvar küçəsi, "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Şaiq Soltanəhməd oğlu Quliyev

**Ağcabədi rayonu Salmanbəyli kəndi "Heydər" məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-661
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ağcabədi rayonu, Salmanbəyli kəndi, "Heydər" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Heydər Cəbi oğlu Məmmədov

**Lerik rayonu Mistan kəndi "İmam Museyi Kazım" məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-662
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lerik rayonu, Mistan kəndi, "İmam Museyi Kazım" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ziya Xanverdi oğlu Süleymanov

**Goranboy rayonu Qızılhacılı qəsəbə məscidi dini icması**
Qeydiyyat tarixi: 20 aprel 2016-cı il
Qeydiyyat №-si: 100116C-663
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Goranboy rayonu, Qızılhacılı qəsəbəsi, Əliş Hüseynov küçəsi, "Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Müşfiq Eldar oğlu Məmmədov

**Masallı rayonu Meşəkənarı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-664
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Meşəkənarı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əlləddin Savad oğlu Mirzəyev

**Neftçala rayonu Bankə qəsəbəsi "İmam Həsən" məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-665
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Neftçala rayonu, Bankə qəsəbəsi, V.Ağayev küçəsi 29, "İmam Həsən" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əlimməmməd Məmmədəli oğlu Talıbov

**Lənkəran rayonu Xarxatan kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-666
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu Xarxatan kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Abuzər Dövlət oğlu Sadıqov

**Şirvan şəhəri "İmam Sahib-Əzzaman" məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-667
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şirvan şəhəri, 1 may küçəsi,"İmam Sahib-Əzzaman" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Adam Kamil oğlu Cavadov

**Neftçala rayonu Xol Qaraqaşlı kəndi "Həzrəti Məhəmməd" məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-668
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Neftçala rayonu, Xol Qaraqaşlı kəndi, "Həzrəti Məhəmməd" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Məhəmməd Balaqardaş oğlu Quliyev

**Bakı şəhəri Xəzər rayonu Mərdəkan qəsəbəsi "Heydər Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116B-669
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, Kolxoz küçəsi 35, "Heydər Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Yusuf Əskər oğlu Əskərov

**Oğuz rayonu Bayan kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-670
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Oğuz rayonu, Bayan kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Arif Umar oğlu Nazarov

**Zərdab rayonu Məlikumudlu kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-671
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Zərdab rayonu, Məlikumudlu kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Zülfüqar Yusif oğlu Nağıyev

**Şəki rayonu Kiş kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-672
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şəki rayonu, Kiş kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Güldəmir Məmmədkərim oğlu Alıyev

**İmişli rayonu Cəfərli kəndi "İmam Hüseyn" məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-673
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu, Cəfərli kəndi, "İmam Hüseyn"məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əbil Əlverdi oğlu Süleymanov

**Yevlax rayonu Yenicə kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116D-674
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Yevlax rayonu, Yenicə kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Tofiq Mustafa oğlu Mustafayev

**Quba şəhəri "Ərdəbil" məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-675
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Quba şəhəri, Fətəlixan küçəsi 113, "Ərdəbil" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Naib Heybət oğlu Səttarov

**Quba rayonu Gültəpə kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-676
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Quba rayonu, Gültəpə kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mahir Qazəhməd oğlu Nəsrullayev

**İsmayıllı rayonu Basqal qəsəbə məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-677
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İsmayıllı rayonu, Basqal qəsəbə məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Fariz Mövlam oğlu Mövlamov

**Şabran rayonu Vələsli kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-678
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şabran rayonu, Vələsli kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Fuad Şaban oğlu Şahbazov

**Zaqatala rayonu Uzuntala kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116D-679
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Zaqatala rayonu, Uzuntala kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: İlham Hacıyov oğlu Vasalov

**Quba rayonu Gəray kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-680
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Quba rayonu, Gəray qəsəbə məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Sadıq Qazı oğlu Hacıyev

**Qobustan rayonu Təklə kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-681
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qobustan rayonu, Təklə kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Gülağa Ədil oğlu Məlikov

**Quba rayonu Xucbala kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-682
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Quba rayonu, Xucbala kənd məscidi

*(Davamı 15-ci səhifədə)*




# "İslam dünyası: təriqətçilikdən vəhdətə doğru"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Penitensiar Xidmətin birgə təşkilatçılığı ilə Salyan rayonunda yerləşən 5 saylı cəzaçəkmə müəssisəsində "İslam dünyası: təriqətçilikdən vəhdətə doğru" mövzusunda tədbir keçirilib. Tədbirdə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 5 saylı cəzaçəkmə müəssisəsinin rəhbərliyi və DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov iştirak edib.**

Tədbirin mahiyyəti barədə məlumat verən N.Məmmədov bildirib ki, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə Dövlət Komitəsi arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq məhkumların dini etiqad azadlığı hüququnu təmin etmək məqsədi ilə bütün cəzaçəkmə müəssisələrində maarifləndirici tədbirlər həyata keçirilir. Son illərdə dünyanı narahat edən dini ekstremizmin yaranma səbəblərindən danışan natiq bildirib ki, bu problem təkcə bu günün deyil, tarixin müxtəlif dönəmlərində ortaya çıxaraq varlığını sürdürən dini radikal təzahürlərin meydana gətirdiyi bəladır.

Şöbə müdirinin sözlərinə görə, münaqişə yaratmaq istəyənlər dindən istifadə edərək müxtəlif metodlara baş vururlar, bu metodların ən uğurlusu isə məzhəbçilik, təriqətçilik zəminində bölücülüyü dərinləşdirməklə, insanların məzhəbi zəmində bir-birilərinə qarşı nifrət hissini oyatmaqdır. Dünyada dini zəmində baş verən münaqişələrin kökündə məhz məzhəb ayrı-seçkiliyinin durduğu açıq görünməkdədir.

Çıxış edən digər natiqlər bildiriblər ki, Azərbaycanda bütün dinlərin və məzhəblərin nümayəndələri sərbəst şəkildə öz əqidələrini yaşayırlar və bunun üçün dövlət tərəfindən lazımi şərait yaradılmışdır. Əsrlər boyu din və məzhəb ayrı-seçkiliyinə yol vermədən birlikdə yaşamağı bacaran xalqımız bu ənənəni hazırda da inkişaf etdirir.

Həmçinin bildirilib ki, bu gün bütün dünyada olduğu kimi, Azərbaycanda da dini ekstremizmin az da olsa, təzahürlərinə rast gəlinir, bəzi radikal qüvvələr ölkəmizdə məzhəbi zəmində qarşıdurma yaratmağa, xalqımızın birliyini pozmağa, dini ektremist görüşləri yaymağa cəhd göstərirlər. Lakin təhlükəsizliyi təhdid edən istənilən cəhdlərin qarşısı müvafiq orqanlar tərəfindən vaxtında alınır. Cəzaçəkmə müəssisələrindəki vətəndaşlar da bu istiqamətdə diqqətli olmalıdırlar.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb və Dövlət Komitəsinin nəşrləri olan müxtəlif ədəbiyyatlar hədiyyə edilib.

# DQİDK-nın əməkdaşı Sinqapurda keçirilən beynəlxalq tədbirdə iştirak edib



Sinqapurda bu ölkənin Xarici İşlər Nazirliyi və Rajaratnam Beynəlxalq Əlaqələr Məktəbinin birgə təşkilatçılığı ilə iyulun 20-21-də "Dini tolerantlığın təşviq edilməsi və gücləndirilməsi məqsədilə ən yaxşı təcrübələr və siyasətlər üzrə regionlararası perspektivlər" mövzusunda seminar keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdir müavini Rəfi Qurbanovun da iştirak etdiyi tədbirdə 20-dən çox ölkədən siyasətçi, hüquqşünas, dini lider, professor, vətəndaş cəmiyyətinin üzvləri, eləcə də bu sahə üzrə ekspertlər iştirak edib.

Keçirilən konfransda dünyada dini tolerantlığın gücləndirilməsi, bu sahədə ən yaxşı təcrübələrin öyrənilməsi və təcrübə mübadiləsinin aparılmasının zəruriliyi ilə bağlı müzakirələr aparılıb.

Çıxışlarda qeyd olunub ki, dini dözümsüzlüyə qarşı aparılan siyasət hər hansı bir dinə qarşı olmamalıdır. Dini dözümsüzlüklə mübarizənin aparılmasında dövlət ilə dini icmalar birlikdə işləməli, insanlara İslamın fundamental dəyərləri düzgün aşılanmalı və ekstremist ideologiyaların qarşısı alınmalıdır. Tədbirdə, həmçinin qeyd olunub ki, dini etiqad azadlığına hörmət edilməli və hər bir dövlətin siyasəti bu istiqamətdə qurulmalıdır.

Qeyd edək ki, DQİDK tərəfindən nəşr edilən "Azərbaycanın seçilmiş İslam abidələri" və "Azərbaycan tolerantlıq diyarı" kitabları, həmçinin Dövlət Komitəsinin sifarişi əsasında çəkilmiş "Azərbaycan tolerantlıq diyarı" sənədli filmi ilə bağlı CD-lər Sinqapurun Rajaratnam Beynəlxalq Əlaqələr Məktəbinin rektor müavini səfir Ong Keng Yonga, Malayziyanın Dinlərarası Harmoniya və Anlaşmanın gücləndirilməsi üzrə Komitəsinin sədri Əmir Fərid Bin İsahaka və Sinqapur İslam Dini Şurasının Strateji İdarəetmə idarəsinin direktoru Zainul Abidin Bin İbrahimə təqdim edilib.




# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

*(Əvvəli 14-cü səhifədə)*

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Həmdulla Daşdəmir oğlu Vəliyev

**Ucar rayonu Xələc kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116D-683
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ucar rayonu, Xələc kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Hüseyn Qulam oğlu Kazımov

**Ağsu rayonu Ağabəyli kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-684
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ağsu rayonu, Ağabəyli kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: İsmayıl Əlibrəhim oğlu Şirinov

**Hacıqabul rayonu Qubalıbalaoğlan kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-685
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Hacıqabul rayonu, Qubalıbalaoğlan kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Alıxan Gülkişi oğlu Müslümov

**Astara rayonu Təngərüd kənd məscidi dini icması**

Qeydiyyat tarixi:09 dekabr 2009-cu il
Qeydiyyat №-si:100109A2 – 75

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Allahverdiyev Feyzulla Məsifulla oğlu, Fərəməzov Əlişah İbadulla oğlu, Əskərov Möhübbət Mərdan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Allahverdiyev Vahid Feyzulla oğlu, Zaidov Sadir Sudeyf oğlu, Ağacanov Cabir Baloğlan oğlu, Dadaşova Səlimə Rəhman qızı, Allahverdiyeva Şamama İsmayıl qızı, Allahverdiyev Vəkil Mehman oğlu, Babayev Rahil Vəfalı oğlu, Cəlilov Heydər Ziya oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Allahverdiyev Feyzulla Məsifulla oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Allahverdiyev Vahid Feyzulla oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 iyul 2016-cı il

**Zərdab rayonu Gəlmə kənd məscidi dini icması**

Qeydiyyat tarixi:12 noyabr 2009-cu il
Qeydiyyat №-si:100109A2 – 18

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Allahyar Əlimövsüm oğlu, Tağıyev Tağı Mehdi oğlu, Lətifov Əsgər Ələsgər oğlu, Orucov Şamil Zeynalabdul oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Həsənov Seyidağa Mirzağa oğlu, Bədəlov Əlihadi Əhməd oğlu, Əliyarov Məmmədsaat Məmmədqulu oğlu, Hüseynov Fəxrəddin Sadıq oğlu, Cəbrayılov Zamir Əlisa oğlu, Əhədov Əlövsəd Məhəmməd oğlu, Abbasov Mirzə Əliabbas oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Məmmədov Allahyar Əlimövsüm oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Abbasov Mirzə Əliabbas oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 iyul 2016-cı il

**Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsi "Cümə" məscidi dini icması**

Qeydiyyat tarixi:06 noyabr 2009-cu il
Qeydiyyat №-si:100109A2 – 10

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsi "Museyi Kazım" məscidi dini icmasının adı dəyişdirilərək Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsi "Cümə" məscidi dini icması kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Həmçinin, Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsi "Cümə" məscidi dini icmasının hüquqi ünvanı dəyişdirilərək Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbə məscidi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 iyul 2016-cı il.

## Elan

Qobustan rayonu Nabur kənd dini icmasının (30.12.2002-ci ildə 149 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 05.07.2016-cı il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Qobustan rayonu Sündü kəndi "Əbu Bəkr" məscidi dini icmasının (26.02.1997-ci ildə Ədliyyə Nazirliyində 143 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 05.07.2016-cı il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Mingəçevir şəhəri "Zəhra" məscidi dini icması (17.05.2011-ci ildə 100111A1 – 513 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 11.07.2016-cı il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

Cəmiyyət və Din
№ 07 (300) / İYUL 2016-cı il

# "Seçilmiş incilər"




Filologiya elmləri üzrə fəlsəfə doktoru, AMEA-nın Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi Əfsanə Məmmədovanın "Seçilmiş incilər" adlı kitabı işıq üzü görüb. Kitab Amerikada XX əsrdə intişar tapmış ərəb məhcər ədəbiyyatının görkəmli nümayəndələrindən sayılan Əmin Rihaninin "Rihaniyyat" külliyyatından seçilmiş incilərin Azərbaycan dilinə tərcümə edilərək toplu şəklində hazırlanmış ilk məcmusudur. Əsərin aktuallığı ondan ibarətdir ki, burada Ə.Rihaninin tolerantlıq, insan hüquqları və azadlığı, multikulturalizm, mənəvi və ictimai intibah, transsendentalizm, ruh və cisim ideyası, urbanizasiya, Şərq və Qərb dixotomiyası və s. kimi mövzulara dair dəyərli fikirləri öz əksini tapmışdır. Tərcümə prosesində müəllifin daha öncə rus və türk dillərinə tərcümə edilməmiş, günümüzlə səsləşən çağdaş mövzuları əks etdirən əsərlərinə müraciət olunmuşdur. Külliyyatda rast gəlinən bəzi yer, insan adları və hadisələrə şərhlər verilmiş, müəllifin bir sıra məsələlər ətrafında dolaşıq fikirlərinə aydınlıq gətirilmişdir.

# KARİB ADALARINDA BİBLİYADAN SİTATLAR TAPILIB



Londonun Britaniya muzeyinin və Lester Universitetinin bir qrup arxeoloqu Karib dənizində yerləşən və Puerto-Riko-ya məxsus olan Mona adasında yerlilələrə və avropalılara aid olduğu düşünülən qayaüstü yazılar və rəsmlər aşkarlayıblar. Söhbət həndəsi fiqurların və zoomorf canlıların şəkillərindən gedir. Lakin əsl sürpriz bu yazıların avropalılara aid olmasıdır.

Alimlərin fikrincə, kəşf Amerika qitələrinin mədəniyyətlərarası və dini dinamikasından xəbər verir. Bura gələn ilk kolonistlər bəzi adət-ənənələri yerli xalqlardan mənimsəyiblər. Yerlilərin təsvirlərinin yanında ispan və latın dillərində xristian simvolları, adlar və tarixlər, həmçinin Bibliyadan sitatlar yazılıb. Kitabələrin birində "dios te perdone", digərində isə "verbum caro factum est" deyilir, bu isə "Allah sizi bağışlasın" və "Kəlam bəşər olub" mənasını daşıyır. Məlum olub ki, səddə yazılan adlardan biri real tarixi şəxsiyyətə - XVI əsrin 30-cu illərində adaya gəlmiş İspaniya Kralının nümayəndəsi Françesko Alleqriyə məxsusdur.

Güman edilir ki, Mona adasında əhali beş min il bundan əvvəl məskunlaşıb. 1494-cü ildə Xristofor Kolumbun ikinci səyahəti zamanı ekspedisiya burada sahilə çıxıb. 2013-cü ildən indiyədək adada tədqiqatçılar tərəfindən 70-dən çox mağara tədqiq edilib.

# UNESCO qərarını verdi



Taliban tərəfindən partladılmış Bamiyan Budda heykəllərinin (Əfqanıstanın Kabil şəhərinin 230 km şimal-qərbində, Banyan vadisində sal qayaların içərisində oyularaq hazırlanmış iki ədəd hündür heykəl kompleksi) kiçik hissəsinin bərpası üçün hazırlıq işləri aparılır. Qubernator Məhəmməd Zakir bildirib ki, Vəhdat heykəllərin bərpasının vilayətə turistlərin cəlb olunmasında əhəmiyyətli rol oynayacaq və yerli icra hakimiyyəti orqanları qədim memarlıq kompleksinin xarabalıqları üzərində görüləcək işlərə hər cür yardım göstərməyə hazırdılar. O, həmçinin söz verib ki, tikinti işləri elə həyata keçiriləcək ki, vilayətin arxeoloji obyektləri maksimum dərəcədə dağıntılardan qorunsun.

Qeyd edək ki, yaşı 1600 il olan Budda heykəlləri 2001-ci ildə Taliban tərəfindən partladılmışdı. O vaxtdan bəri beynəlxalq ictimaiyyətdə onların bərpasının mümkünlüyü barədə müzakirələrin ardı-arası kəsilmir. 2003-cü ildə isə UNESCO Bamiyan (əvvəllər ərazisində Buddist Mədəniyyət Mərkəzi yerləşirdi) əyalətində yerləşən səkkiz obyekti öz Mədəni İrs siyahısına daxil etmişdir. Son illər ciddi təhlükəsizlik problemlərinə görə, vilayəti ziyarət edən turistlərin sayı daha da azalmış, qədim şəhərin xarabalıqlarında isə dilənçilər məskunlaşmışdır.

## Yadigar söz

Yohann Volfqanq Höte
*alman mütəfəkkiri*

**Təbiət insanı zülmətlə əhatələyir və onu daim işığa doğru getməyə məcbur edir. Bu işıq isə elmdir.**

# Bakı və Abşeron üzrə namaz vaxtları (İYUL)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 4:02 | 5:37 | 12:47 | 17:48 | 20:11 | 21:24 |
| 2 | 4:03 | 5:38 | 12:47 | 17:48 | 20:10 | 21:23 |
| 3 | 4:04 | 5:39 | 12:47 | 17:47 | 20:09 | 21:21 |
| 4 | 4:06 | 5:40 | 12:47 | 17:46 | 20:08 | 21:20 |
| 5 | 4:07 | 5:41 | 12:46 | 17:46 | 20:07 | 21:18 |
| 6 | 4:09 | 5:42 | 12:46 | 17:45 | 20:06 | 21:17 |
| 7 | 4:10 | 5:43 | 12:46 | 17:44 | 20:04 | 21:15 |
| 8 | 4:11 | 5:44 | 12:46 | 17:43 | 20:03 | 21:13 |
| 9 | 4:13 | 5:45 | 12:46 | 17:43 | 20:02 | 21:12 |
| 10 | 4:14 | 5:46 | 12:46 | 17:42 | 20:00 | 21:10 |
| 11 | 4:15 | 5:47 | 12:46 | 17:41 | 19:59 | 21:09 |
| 12 | 4:17 | 5:48 | 12:46 | 17:40 | 19:58 | 21:07 |
| 13 | 4:18 | 5:49 | 12:45 | 17:39 | 19:56 | 21:05 |
| 14 | 4:19 | 5:50 | 12:45 | 17:38 | 19:55 | 21:04 |
| 15 | 4:21 | 5:51 | 12:45 | 17:37 | 19:54 | 21:02 |
| 16 | 4:22 | 5:52 | 12:45 | 17:36 | 19:52 | 21:00 |
| 17 | 4:23 | 5:53 | 12:45 | 17:36 | 19:51 | 20:59 |
| 18 | 4:25 | 5:54 | 12:44 | 17:35 | 19:49 | 20:57 |
| 19 | 4:26 | 5:55 | 12:44 | 17:34 | 19:48 | 20:55 |
| 20 | 4:27 | 5:56 | 12:44 | 17:33 | 19:46 | 20:53 |
| 21 | 4:29 | 5:57 | 12:44 | 17:31 | 19:45 | 20:52 |
| 22 | 4:30 | 5:58 | 12:43 | 17:30 | 19:43 | 20:50 |
| 23 | 4:31 | 5:59 | 12:43 | 17:29 | 19:42 | 20:48 |
| 24 | 4:33 | 6:00 | 12:43 | 17:28 | 19:40 | 20:46 |
| 25 | 4:34 | 6:00 | 12:43 | 17:27 | 19:39 | 20:44 |
| 26 | 4:35 | 6:01 | 12:42 | 17:26 | 19:37 | 20:43 |
| 27 | 4:36 | 6:02 | 12:42 | 17:25 | 19:36 | 20:41 |
| 28 | 4:38 | 6:03 | 12:42 | 17:24 | 19:34 | 20:39 |
| 29 | 4:39 | 6:04 | 12:41 | 17:23 | 19:33 | 20:37 |
| 30 | 4:40 | 6:05 | 12:41 | 17:21 | 19:31 | 20:35 |
| 31 | 4:41 | 6:06 | 12:41 | 17:20 | 19:29 | 20:34 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## NO COMMENT

1945-ci il avqustun 6-sı saat 08:15-də ABŞ hərbi aviasiyasına məxsus təyyarədən Yaponiyanın Xirosima şəhərinə atom bombası atılıb.

O dövr üçün Yaponiyanın ən inkişaf etmiş şəhərlərindən sayılan və ən güclü hərbi bazaların yerləşdiyi Xirosima şəhərinin yarısı atom bombasının zərbəsindən tamamilə məhv olub. Nəticədə 70 min nəfər ölüb, 140 min nəfər yaralanıb, 100 mindən artıq şəxs radiasiya şüalanmasına məruz qalıb. Sonrakı illərdə də üzə çıxan bu radiasiya təsirləri nəticəsində dünyasını dəyişən insanların sayı yüzminlərlədir.

Avqustun 9-u saat 11:02-də isə ABŞ aviasiyası Yaponiyanın digər şəhəri Naqasakiyə «Fat Man» adlı Plqtonium-239 tipli atom bombasını atıb. Partlayış nəticəsində Naqasaki şəhərinin 74 min sakini həlak olub. Şəhər bələdiyyəsinin açıqladığı rəsmi məlumata görə, 9 avqust 1945-ci ildə və sonradan radiasiyanın təsirindən ölənlərin sayı 143124 nəfər olub.



Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib),* Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 568

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894